
YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

18 noyabr 2026-cı il, çərşənbə
№ 210 (7277)
Qiyməti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

Bakının müttəfiqlik siyasəti...

A.S. (Ante Skriptum)

İlham Əliyev:

Ləyaqət anlayışı bütün qələbələrin fövqündə dayanır



Milli maraqlar, strateji seçim və geniş regional əməkdaşlıq

Bax səh. 2

Sülhə doğru addım...

Bax səh. 3

Milli Məclisin iclasında...

Milli Məclisin noyabrın 17-də keçirilən iclasında 2027-ci ilin büdcə zərfinə daxil olan məsələlərin müzakirəsi davam etdirilib. Millət vəkillərinin çıxışlarından sonra 2027-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Sonra "Dövlət Sosial Müdafiə Fondunun 2027-ci il büdcəsi haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb. Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev çıxış edərək bildirib ki, sosial siyasət Azərbaycan dövlətinin daxili siyasətində daim prioritet yer tutub. Qeyd edilib ki, Dövlət Sosial Müdafiə Fondunun (DSMF-nin) 2027-ci il üçün gəlirləri 9 milyard 221 milyon manat təşkil edəcək ki, bu da cari ilin proqnoz göstəricisi ilə müqayisədə 897 milyon 400 min manat və ya 10,8 faiz çoxdur.

DSMF-nin 2027-ci il üçün nəzərdə tutulan xərcləri isə 9 milyard 273 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin göstəricisindən 790 milyon manat və ya 9,3 faiz çoxdur. Fondun daxilolmalarının 7 milyard 587 milyon manatının, yaxud 82,3 faizinin məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar hesabına formalaşması nəzərdə tutulur. Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 67,5 faizi qeyri-büdcə sektorunun, 32,5 faizi isə büdcədən maliyyələşən təşkilatların hesabına təmin ediləcək. Fondun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,5 faizini əhaliyə ödənişlər təşkil edəcək. Əmək pensiyalarının orta aylıq məbləğinin 2027-ci ildə 640 manat olacağı proqnozlaşdırılır. Əvvəlki illərdə olduğu kimi, cari və növbəti ildə də əvəzetmə əmsalı, yəni orta aylıq pensiya məbləğinin orta aylıq əməkhaqqı məbləğinə nisbəti 50 faiz həddini qoruyaraq Beynəlxalq Əmək Təşkilatının sosial təminatın 40 faizlik minimum normaları haqqında müvafiq konvensiyasına cavab verəcək.

2027-ci ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsinə 281 milyon manat vəsait nəzərdə tutulub.

Komitə sədri "İşsizlikdən sığorta fondunun 2027-ci il büdcəsi haqqında" qanun layihəsi barədə də məlumat verib. O bildirib ki, 2027-ci ildə İşsizlikdən Sığorta Fondunun (İSF-in) gəlirləri 269 milyon manat, fondun əvvəlki illərdə istifadə olunmamış vəsaitindən 2027-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən vəsaitin həcmi isə 50 milyon manat nəzərdə tutulub. Gələn ildə işsizlikdən sığorta haqları üzrə yığımların 267 milyon manat təşkil edəcəyi proqnozlaşdırılır ki, bu da 2026-cı ilin təsdiq edilmiş müvafiq göstəricisindən 31 milyon manat və ya 13 faiz çoxdur. 2027-ci ildə İSF-in xərcləri 319 milyon manat həcmində proqnozlaşdırılır ki, bu da keçən illə müqayisədə 53 milyon manat çoxdur. Gələn il fondun xərclərinin 36 milyon manatı işsizliyə görə sığorta ödənişləri üçün nəzərdə tutulub. Bu, cari ildəkindən 28,6 faiz çoxdur. İSF-in xərclərinin 113 milyon manatı, yaxud 35 faizi özünüməşğulluq tədbirlərinin maliyyələşməsinə yönəldiləcəkdir. 2027-ci ildə 14500 nəfərin özünüməşğulluq proqramına cəlb olunacağı nəzərdə tutulur...

Bax səh. 4



Qeyri-neft ixracını artıracaq yeni hədəflər

Bax səh. 4

Banklardakı əmanətlər vergiyə cəlb oluna bilər

Bax səh. 4

Avrasiyada əməkdaşlıq perspektivlərinə böyük inam

Bax səh. 6

Dünyanın taleyi dəyişəcəkmi?

Bax səh. 6

Əsrlərin yaddaşında yaşayan gözəllik...

Bax səh. 8

Şərqi Avropa və Şimali Asiyada ən yüksək nəticə

Noyabrın 16-da Doha şəhərində Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Səlahiyyətli Konfransı çərçivəsində keçirilmiş seçkilərdə Azərbaycan BTİ-nin Şurasının 2027-2030-cu illər üzrə üzvlüyünə seçilib. Azərbaycan təmsil olunduğu Şərqi Avropa və Şimali Asiya regionu üzrə ən yüksək səs toplayaraq 129 səslə BTİ Şurasına üzv qəbul olunub və BTİ-nin idarəetmə orqanında təmsil olunmaq hüququ qazanıb.

BTİ qlobal radio tezliklərin bölüşdürülməsini, peyk orbitlərini və informasiya-kommunikasiya texnologiyaları üzrə beynəlxalq texniki standartları idarə edən ixtisaslaşmış beynəlxalq təşkilatdır. 1992-ci ildən BTİ-nin üzvü olan ölkəmiz 2014, 2018 və 2022-ci illərdə ard-arda Şuraya, 2018 və 2022-ci illərdə isə RTK-ya üzv seçilib və bu illər ərzində təşkilatın fəaliyyətində fəal iştirak edir.

Azərbaycanın BTİ Şurasına ardıcıl dördüncü dəfə üzv seçilməsi və təqdim etdiyi namizədin Radio Tənzimləmə Komitəsində təmsil olunmaq hüququ qazanması beynəlxalq telekommunikasiya ictimaiyyətinin ölkəmizə göstərdiyi etimadın göstəricisidir.

Azərbaycan - Beynəlxalq Telekommunikasiya İttifaqı münasibətlərinin 35 ilə yaxın tarixi var. Ölkəmiz 1992-ci ildə BTİ-yə üzv qəbul olunub və 1995-ci ildən sıx əməkdaşlıq münasibətləri müxtəlif layihələrdə özünü təsdiqləyib. Azərbaycan nümayəndə heyətləri BTİ-nin müxtəlif tədbirlərdə iştirak edib, eləcə də təşkilatın rəhbər heyəti dəfələrlə Bakı keçirilmiş Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransında iştirak ediblər.

Azərbaycanın işğal olunmuş ərazilərində informasiya və kommunikasiya texnologiyaları sahəsində qeyri-qanuni çalışan şirkətlərin fəaliyyətlərinə xitam verilməsi üçün BTİ üzv ölkələri arasında təmimi əsasda yayılması məqsədilə 2017-ci ildə Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən BTİ-nin baş katibinə müvafiq məktub ünvanlanıb, təşkilatın operativ reaksiyası sayəsində Azərbaycanın haqlı mövqeyi dəstəklənib.

BTİ ilə Azərbaycan arasında yüksək səviyyədə əməkdaşlıq, faydalı və işgüzar münasibətlər nəzərə alınaraq, 2015-ci ildə BTİ-nin 150-ci ildönümünü münasibətilə ölkəmiz təşkilatın 3 "Qızıl Tərəfdaş"ından biri seçilib.

2025-ci ildə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında BTİ Regional Akselerasiya Mərkəzinin yaradılması ilə bağlı Əməkdaşlıq Sazişinin təsdiq edilməsi münasibətlərdə yeni mərhələni başladı. Regional Akselerasiya Mərkəzinin əsas prioritetləri startapların, biznes subyektlərinin, dövlət qurumları və təhsil müəssisələrinin əməkdaşlığı vasitəsilə innovativ sahibkarlıq potensialının gücləndirilməsi, ekosistemdə bilik və təcrübə mübadiləsinin, eləcə də beynəlxalq şəbəkələşmənin təşviqidir ki, bu istiqamətdə uğurlu addımlar atılmaqdadır.

Yeri gəlmişkən, BTİ Regional Akselerasiya...

Bax səh. 5



Müşahidə, yoxsa gizli missiya?


Bax səh. 6



Barrikadaların yaddaşı: Fransa 1968-in mayından nə öyrəndi?

Bax səh. 7


Bakının müttəfiqlik siyasəti...



Milli maraqlar, strateji seçim və geniş regional əməkdaşlıq

Azərbaycan xarici siyasətini milli dövlətçilik maraqlarının qorunması, ərazi bütövlüyünün təmin edilməsi, təhlükəsizlik mühitinin möhkəmləndirilməsi və iqtisadi inkişaf üçün əlverişli beynəlxalq şəraitin yaradılması istiqamətində formalaşdırıb. Bu siyasət nəticəsində ölkəmiz müxtəlif dövlətlərlə münasibətlərini zamanın tələblərinə uyğun olaraq inkişaf etdirib, bəzi dövlətlərlə strateji tərəfdaşlıqdan müttəfiqlik səviyyəsinə yüksələn əlaqələr qurub. Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanla yaradılmış müttəfiqlik münasibətləri bu strategiyanın mühüm təzahürüdür.

Bu ölkələrlə imzalanan bəyannamə və müqavilələr Azərbaycanın xarici siyasətində təsadüfi seçimlərin deyil, uzunmüddətli strateji hesablamaların nəticəsidir. Hər bir dövlətlə əməkdaşlıq tarixi və mənəvi yaxınlıqla yanaşı, siyasi, iqtisadi, təhlükəsizlik, nəqliyyat, enerji və humanitar sahələrdə qarşılıqlı fayda prinsiplərinə söykənir. Burada əsas məsələ müttəfiqliyin hansısa üçüncü dövlətə qarşı yönəlməsi deyil, tərəflərin müstəqilliyinin, suverenliyinin və inkişaf imkanlarının möhkəmləndirilməsidir.



Türkiyə ilə müttəfiqlik: qardaşlıqdan strateji təhlükəsizlik sisteminə

Azərbaycanın müttəfiqlik siyasətində Türkiyə ilə münasibətlər xüsusi yer tutur. Bu münasibətlər yalnız iki dövlət arasında formalaşmış ənənəvi dostluq və qardaşlıq əlaqələri ilə məhdudlaşmır, həm də regional təhlükəsizlik, siyasi sabitlik, iqtisadi inkişaf və geosiyasi maraqlar baxımından mühüm strateji əhəmiyyət daşıyır. Azərbaycan-Türkiyə münasibətlərinin bugünkü səviyyəyə yüksəlməsi uzun illər ərzində həyata keçirilən ardıcıl siyasətin, qarşılıqlı etimadın və milli maraqların uzlaşdırılmasının nəticəsidir. 2021-ci il iyunun 15-də Şuşada imzalanan Müttəfiqlik münasibətləri haqqında Bəyannamə bu əlaqələrin hüquqi və siyasi əsaslarını daha da möhkəmləndirdi.

Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərini keyfiyyətcə yeni mərhələyə yüksəltməklə yanaşı, iki dövlətin gələcək əməkdaşlığının əsas istiqamətlərini də müəyyənləşdirdi. Sənəddə münasibətlərin mahiyyətini ifadə edən mühüm müddəalardan biri belədir: "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı münasibətlərin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırılmasının iki ölkə və onların xalqlarının maraq və mənafelərinə xidmət etdiyini vurğulayaraq..." Bu ifadə müttəfiqliyin əsasını təşkil edən prinsipin məhz qarşılıqlı milli maraqlar olduğunu aydın göstərir. Bəyannamənin başqa bir müddəasında tərəflərin "öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət" həyata keçirdikləri xüsusi vurğulanır. Deməli, müttəfiqlik münasibətləri dövlətlərin müstəqil qərarvermə hüququnu məhdudlaşdırmır, əksinə, onların suverenliyini və siyasi imkanlarını gücləndirir.

Bəyannamənin əhatə etdiyi sahələr kifayət qədər genişdir. Buraya siyasi dialoq və xarici siyasətin əlaqələndirilməsi, müdafiə və təhlükəsizlik, hərbi-texniki əməkdaşlıq, müdafiə sənayesi, kibertəhlükəsizlik, iqtisadiyyat, energetika, nəqliyyat, mədəniyyət, təhsil, səhiyyə və humanitar əlaqələr daxildir. Sənəddə üçüncü dövlət tərəfindən tərəflərdən birinə qarşı təcavüz və ya belə bir təhlükə yarandığı halda birgə məsləhətləşmələrin aparılması və zəruri yardımın göstərilməsi mexanizmi də nəzərdə tutulur. Müdafiə sənayesi sahəsində texnologiya mübadiləsi, birgə tədqiqat və istehsal, silah və sursat istehsalı imkanlarının inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Kibertəhlükəsizlik sahəsində birgə elmi araşdırmaların və mütəxəssis hazırlığının təşviqi də müasir çağırışlara uyğun əməkdaşlıq modelinin formalaşdırıldığını göstərir.

Qeyd olunmalıdır ki, hələ müttəfiqlik əlaqələrinin rəsmiləşdirilməsindən öncə də Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər məhz bu kontekstdə formalaşmışdı - xüsusilə Vətən müharibəsi dövründə Türkiyənin Azərbaycanın ərazi bütövlüyünə verdiyi siyasi və mənəvi dəstək olduqca böyük əhəmiyyət daşımışdı. Şuşa Bəyannaməsində təsbit olunan təhlükəsizlik mexanizmləri isə iki ölkənin strateji maraqlarının nə dərəcədə uzlaşdığını nümayiş etdirdi. Eyni zamanda, Türkiyə ilə əməkdaşlıq Azərbaycanın regional nəqliyyat və logistika imkanlarının genişləndirilməsi, Naxçıvanla əlaqələrin inkişafı, Şərq-Qərb istiqamətində yeni kommunikasiya xətlərinin formalaşması baxımından da mühüm əhəmiyyət daşıyır. İki ölkənin enerji sahəsində əməkdaşlığı, TANAP və Cənub Qaz Dəhlizi kimi layihələrdə iştirakı Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyində rolunu gücləndirir.

Bir sözlə, Azərbaycanın Türkiyə ilə müttəfiqliyi yalnız tarixi-mənəvi yaxınlıq üzərində deyil, konkret dövlət maraqları və uzunmüddətli strateji hədəflər əsasında inkişaf edir. Bu münasibətlər Azərbaycanın təhlükəsizlik imkanlarını artırmaqla yanaşı, regional proseslərdə daha fəal iştirakına, beynəlxalq mövqelərinin möhkəmlənməsinə və iqtisadi əlaqələrinin şaxələndirilməsinə xidmət edir. Şuşa Bəyannaməsi məhz bu baxımdan iki qardaş dövlətin siyasi iradəsini, qarşılıqlı məsuliyyətini və gələcəyə hesablanmış strateji baxışını ifadə edən fundamental sənəddir.

Qazaxıstanla müttəfiqlik: Xəzər hövzəsində ortaq maraqlar və nəqliyyat-logistika strategiyası

Azərbaycanın Qazaxıstanla münasibətləri xarici siyasətimizin müttəfiqlik xəttinin mühüm istiqamətlərindən birini təşkil edir. Bu ölkə ilə də əlaqələrin əsasında tarixi, etnik, mədəni və mənəvi yaxınlıqla yanaşı, Xəzər hövzəsində və daha geniş Avrasiya məkanında üst-üstə düşən geosiyasi və iqtisadi maraqlar dayanır. Azərbaycan və Qazaxıstan müstəqillik əldə etdikdən sonra münasibətlərini ardıcıl şəkildə inkişaf etdirərək siyasi dialoqu, iqtisadi əməkdaşlığı və regional təhlükəsizlik sahəsində qarşılıqlı fəaliyyəti genişləndiriblər. 2005-ci il mayın 24-də imzalanmış Strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə bu əlaqələrin hüquqi əsasını formalaşdıran mühüm sənəddir. 2022-ci il avqustun 24-də Bakıda imzalanmış Strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə isə əməkdaşlığın yeni mərhələsini müəyyənləşdirib.

2022-ci il Bəyannaməsinin imzalanması zamanı Prezident İlham Əliyev sənədin siyasi mahiyyətini belə ifadə etmişdi: "Biz təkcə strateji tərəfdaşlar deyil, həm də müttəfiqlərik". Dövlət başçısının bu fikri Azərbaycan-Qazaxıstan münasibətlərinin artıq ənənəvi dostluq və iqtisadi tərəfdaşlıq çərçivəsindən kənara çıxdığını, qarşılıqlı məsuliyyət və strateji koordinasiya mərhələsinə yüksəldiyini göstərir. Müttəfiqliyin əsasını təşkil edən suverenliyə, müstəqilliyə, ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına hörmət prinsipləri iki dövlətin beynəlxalq münasibətlər sistemində bir-birinə etibarlı tərəfdaş kimi yanaşmasını təmin edir. Burada mühüm olan məqam tərəflərin öz xarici siyasət prioritetlərini qorumaqla ortaq maraqlar üzrə fəaliyyətlərini uzlaşdırmasıdır.

Azərbaycan-Qazaxıstan müttəfiqliyinin əsas istiqamətlərindən biri nəqliyyat və logistika sahəsidir. Xəzər dənizi üzərindən həyata keçirilən yükdaşımalar, Orta Dəhlizin inkişafı, liman və dəmir yolu infrastrukturunun əlaqələndirilməsi hər iki ölkənin iqtisadi maraqlarına cavab verir. Qazaxıstanın böyük tranzit və xammal potensialı, Azərbaycanın isə Xəzərin qərb sahilində yerləşən əlverişli coğrafi mövqeyi bu əməkdaşlığa xüsusi strateji məzmun qazandırır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası, Bakı-Tbilisi-Qars dəmir yolu və digər nəqliyyat infrastrukturu Qazaxıstan yüklərinin Avropa bazarlarına çatdırılmasında Azərbaycanın əhəmiyyətini artırır. 2022-ci ildə imzalanmış sənədlər sırasında tranzit yükdaşımaları, nəqliyyat, dəmir yolu, biznes və ticarət sahələrində əməkdaşlığa dair razılaşmaların yer alması da bu istiqamətin prioritetliyini təsdiqləyir.

Energetika sahəsində əməkdaşlıq da qarşılıqlı maraqların mühüm tərkib hissəsidir. Qazaxıstanın enerji resurslarının Azərbaycan ərazisi və infrastrukturu vasitəsilə dünya bazarlarına, o cümlədən Avropa istiqamətinə çıxarılması Xəzər regionunun tranzit imkanlarını genişləndirir. SOCAR və QazaqGaz arasında əməkdaşlıq, neft və qaz sektorunda əlaqələrin inkişafı, enerji daşıyıcılarının nəqli üzrə yeni imkanların araşdırılması bu sahədə tərəfdaşlığın praktiki məzmununu artırır. Bununla yanaşı, ticarət, investisiya, sənaye, kənd təsərrüfatı, rəqəmsal texnologiyalar, elm, təhsil və mədəniyyət sahələri də ikitərəfli gündəliyin mühüm istiqamətləridir. 2022-2026-cı illər üzrə Kompleks Əməkdaşlıq Proqramının imzalanması əlaqələrin konkret fəaliyyət planları əsasında inkişafına xidmət edib.

Azərbaycanın Qazaxıstanla müttəfiqliyi yalnız ikitərəfli münasibətlərin möhkəmlənməsi baxımından deyil, Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında geoiqtisadi əlaqələrin genişlənməsi baxımından da əhəmiyyətlidir. Hər iki dövlət Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanın dərinləşməsində maraqlıdır. Qazaxıstanın Mərkəzi Asiyada, Azərbaycanın isə Cənubi Qafqazda yaratdığı iqtisadi və tranzit imkanları bir-birini tamamlayır. Bu əməkdaşlıq nəticəsində Azərbaycan Xəzərin hər iki sahilində iqtisadi və nəqliyyat əlaqələrinin inkişafında aparıcı mövqeyini möhkəmləndirir. Beləliklə, Qazaxıstanla müttəfiqlik Azərbaycanın milli maraqlarına uyğun olaraq tranzit potensialının artırılması, enerji ixracının şaxələndirilməsi, regional sabitliyin möhkəmləndirilməsi və Avrasiya məkanında strateji mövqelərinin gücləndirilməsi məqsədlərinə xidmət edir.



Qırğızıstanla müttəfiqlik: strateji tərəfdaşlıqdan daha yüksək əməkdaşlıq mərhələsinə doğru

Azərbaycanın Qırğızıstanla münasibətləri son illərdə dinamik inkişaf edərək strateji tərəfdaşlıqdan müttəfiqlik səviyyəsinə yüksəlib. İki xalqı birləşdirən ortaq türk kökləri, tarixi, mədəni və mənəvi yaxınlıq dövlətlərarası əlaqələrin möhkəm təməlini təşkil edir. Bu əlaqələrin genişlənməsində siyasi, iqtisadi, investisiya, nəqliyyat, energetika və təhlükəsizlik sahələrində mövcud olan qarşılıqlı maraqlar da mühüm rol oynayır. Məhz bu maraqların uzlaşdırılması nəticəsində münasibətlər ardıcıl olaraq yeni mərhələlərə yüksəlib.

2022-ci il aprelin 20-də Bakıda Azərbaycan və Qırğızıstan prezidentləri tərəfindən Strateji Tərəfdaşlıq haqqında Bəyannamənin imzalanması ikitərəfli münasibətlərdə mühüm dönüş nöqtəsi oldu. Həmin sənədlə yanaşı, Dövlətlərarası Şuranın yaradılması haqqında Memorandumun imzalanması əməkdaşlığın institusional əsaslarını gücləndirdi. Prezident İlham Əliyev o zaman münasibətlərin yeni mərhələsini belə xarakterizə etmişdi: "Strateji tərəfdaşlıq qarşılıqlı fəaliyyətin yüksək səviyyəsidir və bizi məhz strateji xarakterli əməkdaşlığa kökləyir." Dövlət başçısı, həmçinin, iki ölkənin beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini, siyasi dialoqun və iqtisadi əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulamışdı. Bu yanaşma Azərbaycanın Qırğızıstanla münasibətlərində qarşılıqlı siyasi dəstəyin və milli maraqların uzlaşdırılmasının əsas yer tutduğunu göstərirdi.

Münasibətlərin daha yüksək səviyyəyə qaldırılması istiqamətində növbəti mühüm addım 2026-cı il iyulun 31-də Qırğızıstanın Çolpon-Ata şəhərində atıldı. Prezident İlham Əliyev və Prezident Sadır Japarov Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında Müttəfiqlik münasibətləri haqqında Müqaviləni imzaladılar. Müqavilə 2026-cı il oktyabrın 13-də Milli Məclis tərəfindən təsdiq edildi və oktyabrın 21-də Prezident tərəfindən imzalanan qanunla ratifikasiya olundu. Beləliklə, əvvəllər strateji tərəfdaşlıq səviyyəsində olan münasibətlər hüquqi baxımdan müttəfiqlik mərhələsinə yüksəldi. Sənədin əsas məqsədi iki ölkənin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə qarşılıqlı hörmət əsasında əməkdaşlığı dərinləşdirməkdir.

Yeni müqavilə siyasi və diplomatik əlaqələrlə yanaşı, müdafiə və təhlükəsizlik, hərbi-texniki əməkdaşlıq, kadr hazırlığı, iqtisadiyyat, investisiya, nəqliyyat, kənd təsərrüfatı və humanitar sahələrdə qarşılıqlı fəaliyyəti genişləndirmək üçün hüquqi zəmin yaradır. Tərəflər xarici siyasət sahəsində məsləhətləşmələrin aparılmasına, ümumi maraq doğuran beynəlxalq məsələlərdə mövqelərin uzlaşdırılmasına və təhlükəsizlik çağırışlarına qarşı birgə fəaliyyətə önəm verirlər. Müqavilənin mühüm prinsiplərindən biri də tərəflərin bir-birinə qarşı yönəlmiş blok və ittifaqlarda iştirak etməməsi, qarşılıqlı müttəfiqlik münasibətlərinə xələl gətirə biləcək addımlardan çəkinməsidir. Hərbi və hərbi-texniki əməkdaşlığın genişləndirilməsi, mütəxəssis hazırlığı və müdafiə potensialının artırılması da sənədin diqqət çəkən istiqamətlərindəndir.

İqtisadi əməkdaşlıq Azərbaycan-Qırğızıstan müttəfiqliyinin praktik nəticələrini müəyyən edən əsas istiqamətlərdəndir. 2022-ci ildə yaradılmış Azərbaycan-Qırğız İnkişaf Fondu qarşılıqlı investisiyaların təşviqi, biznes əlaqələrinin genişləndirilməsi və birgə layihələrin maliyyələşdirilməsi baxımından mühüm mexanizmdir. 2026-cı ilin iyulunda fondun yaradılması haqqında sazişə dəyişikliklərin edilməsi də onun fəaliyyətinin təkmilləşdirilməsinə və investisiya əməkdaşlığının genişləndirilməsinə yönəlib. Energetika, elektrik stansiyalarının yaradılması, kənd təsərrüfatı, sənaye və ticarət sahələrində birgə layihələr üçün geniş imkanlar mövcuddur. Nəqliyyat sahəsində isə Azərbaycanın Şərq-Qərb dəhlizindəki mövqeyi Qırğızıstanın beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətlidir.

Mədəni-humanitar əlaqələr, təhsil, səhiyyə, turizm və elm sahələrində əməkdaşlıq da münasibətlərin mühüm istiqamətlərindəndir. 2024-cü ildə Bakı ilə Bişkek arasında imzalanmış sənədlər enerji, səhiyyə, elm və təhsil, miqrasiya, gömrük, hüquq, rəqəmsal xidmətlər və iqtisadi əməkdaşlığı əhatə edib. İki ölkənin beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyi də siyasi münasibətlərin möhkəmliyini nümayiş etdirir. Bütün bunlar göstərir ki, Azərbaycan Qırğızıstanla müttəfiqliyi konkret iqtisadi və siyasi nəticələr doğuran uzunmüddətli əməkdaşlıq modeli kimi inkişaf etdirir. Burada əsas məqsəd hər iki dövlətin suveren maraqlarını qorumaq, qarşılıqlı imkanlardan səmərəli istifadə etmək və Türk dünyasında inteqrasiyanın möhkəmlənməsinə töhfə vermək-dir.

Özbəkistanla müttəfiqlik: Türk dünyasında inteqrasiya və iqtisadi-strateji tərəfdaşlığın genişlənməsi

Azərbaycanın Özbəkistanla münasibətləri müttəfiqlik siyasətinin mühüm və çoxşaxəli istiqamətlərindən biridir. İki xalq arasında əsrlər boyu formalaşmış tarixi, mədəni və mənəvi bağlılıq dövlətlərarası münasibətlərin inkişafı üçün möhkəm zəmin yaradıb. Müstəqillik dövründə bu əlaqələr siyasi dialoq, iqtisadi əməkdaşlıq və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək əsasında daha da genişlənib. 1997-ci ildə hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamənin, 2004-cü ildə strateji tərəfdaşlığın möhkəmləndirilməsi haqqında Bəyannamənin, 2022-ci ildə isə strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamənin imzalanması münasibətlərin mərhələli şəkildə yüksəldiyini göstərir. Nəhayət, 2024-cü il avqustun 23-də Daşkənddə imzalanan Müttəfiqlik münasibətləri haqqında Müqavilə bu əlaqələri keyfiyyətcə yeni səviyyəyə çatdırdı.

Müqavilənin siyasi əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan və Özbəkistan münasibətləri artıq yalnız strateji tərəfdaşlıq deyil, uzunmüddətli müttəfiqlik prinsipləri əsasında inkişaf etdirilməyə başlanıb. Sənədin birinci maddəsində tərəflərin münasibətlərinin mahiyyəti konkret şəkildə müəyyənləşdirilir: "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri Tərəflərin hərtərəfli əməkdaşlığı, etimadı, bərabərliyi və milli maraqlarının qarşılıqlı nəzərə alınması, müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət əsasında qurulur". Bu müddəa Azərbaycanın müttəfiqlik siyasətinin əsas fəlsəfəsini aydın ifadə edir. Burada bərabərlik və milli maraqların qarşılıqlı nəzərə alınması müttəfiqliyin əsas şərti kimi müəyyənləşdirilir.

Müqavilə siyasi, iqtisadi, investisiya, nəqliyyat-logistika, müdafiə, elmi-texniki və mədəni-humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Xarici siyasətin əlaqələndirilməsi, müdafiə və təhlükəsizlik məsələlərində qarşılıqlı fəaliyyət, beynəlxalq təşkilatlarda bir-birinə dəstək, regional və beynəlxalq problemlər üzrə məsləhətləşmələr bu əməkdaşlığın siyasi əsaslarını təşkil edir. Sənəddə tərəflərin bir-birinə qarşı yönəlmiş blok və ittifaqlarda iştirak etməməsi, üçüncü dövlətlər tərəfindən silahlı hücum təhlükəsi yarandığı halda məsləhətləşmələr aparılması və zəruri yardım göstərilməsi kimi müddəalar da yer alır. Bu, müttəfiqliyin yalnız siyasi bəyanat səviyyəsində qalmadığını, təhlükəsizlik sahəsində də konkret qarşılıqlı öhdəliklər yaratdığını göstərir.

İqtisadi əməkdaşlıq Azərbaycan-Özbəkistan müttəfiqliyinin əsas dayaqlarından biridir. Hər iki ölkə iqtisadiyyatın şaxələndirilməsində, sənaye istehsalının genişləndirilməsində, qarşılıqlı investisiyaların artırılmasında və yeni bazarlara çıxış imkanlarının yaradılmasında maraqlıdır. Bu istiqamətdə birgə investisiya fondlarının yaradılması və fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Sənaye, tekstil, kənd təsərrüfatı, avtomobil sənayesi, kimya, metallurgiya, enerji və digər sahələrdə birgə layihələr iqtisadi əlaqələrin real məzmununu genişləndirir. Özbəkistanın Mərkəzi Asiyanın böyük iqtisadi potensialına malik dövlətlərindən biri olması, Azərbaycanın isə Cənubi Qafqazda mühüm tranzit və logistika mərkəzi kimi çıxış etməsi tərəflərin imkanlarını qarşılıqlı şəkildə tamamlayır. Beləliklə, müttəfiqlik həm ikitərəfli ticarətin artmasına, həm də regional iqtisadi əlaqələrin genişlənməsinə xidmət edir.

Nəqliyyat və logistika sahəsində əməkdaşlıq xüsusi strateji əhəmiyyət daşıyır. Özbəkistanın beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsi, Orta Dəhlizin inkişafı, Xəzər dənizi üzərindən yükdaşımaların artırılması və Azərbaycanın tranzit infrastrukturundan istifadə iki ölkənin ortaq maraqlarına uyğundur. Bu əməkdaşlıq Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında iqtisadi əlaqələrin güclənməsinə, Avropa və digər bazarlara çıxışın şaxələndirilməsinə imkan yaradır. Energetika sahəsində də qarşılıqlı investisiyalar, enerji infrastrukturu, alternativ və bərpaolunan enerji layihələri üçün geniş perspektivlər mövcuddur.

Müttəfiqliyin humanitar ölçüsü də diqqətəlayiqdir. 2024-cü ildə imzalanan sənədlər sırasında təhsil, elm, mədəniyyət, turizm, ədliyyə və dövlət xidmətləri sahələrində əməkdaşlıq proqramları və yol xəritələri yer alıb. 2025-2029-cu illər üçün Müqavilənin həyata keçirilməsi üzrə Yol xəritəsinin hazırlanması isə razılaşmaların praktiki icrasına xidmət edir.

Bütün bunlar Azərbaycanın Özbəkistanla münasibətlərini yalnız siyasi yaxınlıq çərçivəsində deyil, iqtisadi və institusional əməkdaşlığın genişləndirilməsi əsasında inkişaf etdirdiyini göstərir. Bu müttəfiqlik Azərbaycanın Mərkəzi Asiyada mövqelərinin möhkəmlənməsi, Türk dünyasında inteqrasiyanın dərinləşməsi və milli maraqların daha geniş coğrafiyada təmin edilməsi baxımından mühüm strateji əhəmiyyət daşıyır.

Xarici siyasətin dəyişməz prioriteti: milli maraqlar...

Beləliklə, Azərbaycanın bu yanaşması müttəfiqliyi formal siyasi anlayışdan çıxararaq konkret əməkdaşlıq mexanizminə çevirir. Ölkəmiz tərəfdaşlarının maraqlarına hörmətlə yanaşmaqla yanaşı, öz milli maraqlarının qorunmasını da xarici siyasətin dəyişməz prioriteti kimi saxlayır. Azərbaycanın müttəfiqlik siyasəti həm regional əməkdaşlığın genişlənməsinə, həm Türk dünyasında inteqrasiyanın dərinləşməsinə, həm də ölkəmizin beynəlxalq mövqelərinin güclənməsinə xidmət edir.

Pərviz SADAYOĞLU

Prezident İlham Əliyev Almaniyanın xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Almaniya Federativ Respublikasının xarici işlər naziri Yohan David Vadefulun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaq, ilk növbədə, Almaniya Federativ Respublikasının Prezidenti Frank-ValterŞtaynmayerin və Federal Kansler Fridrix Mertsin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Almaniya Prezidentinə və Federal Kanslerinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı bu ilin iyulunda dövlətimizin başçısının Almaniyaya rəsmi səfəri, səfər çərçivəsində keçirilən görüşlər və aparılan səmərəli müzakirələr məmnunluqla xatırlandı. Həmin səfər zamanı imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə", həmçinin Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair Birgə Bəyannamənin ikitərəfli əməkdaşlığın möhkəmlənməsində roluna toxunuldu.

Görüşdə ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, siyasi, iqtisadi, sərmayələr, biznes, ənənəvi və alternativ enerji, bağlantılar, nəqliyyat, logistika, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi.

Ölkəmizin Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyi vurğulandı, bu ildən başlayaraq Azərbaycan qazının Almaniyaya ixracı qeyd olundu.

Söhbət zamanı ölkəmizin Orta Dəhlizdə önəmli roluna toxunuldu, Azərbaycan-Avropa İttifaqı əlaqələrinin perspektivləri, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edildi.

Prezident İlham Əliyev Gürcüstanın Baş nazirinin müavinini qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvilini qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı bu ilin aprelində Azərbaycan Prezidentinin Gürcüstana dövlət səfəri, həmçinin Mariam Kvrivişvilinin ötən il ölkəmizə səfəri və dövlətimizin başçısı ilə görüşü məmnunluqla xatırlandı, bütün bunların ikitərəfli əlaqələrimizin inkişafına töhfə verdiyi qeyd olundu.

Qonaq Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Baş nazir İrakli Kobaxidzeyə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla Gürcüstan arasında dostluq və mehriban qonşuluq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərin müxtəlif istiqamətlər üzrə uğurla inkişaf etməsindən məmnunluq bildirildi.

Azərbaycanla Gürcüstanın birgə həyata keçirdiyi enerji və nəqliyyat layihələrinin daha geniş region üçün mühüm əhəmiyyət kəsb etdiyi vurğulandı.

Söhbət zamanı müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafında roluna toxunuldu, ticarət dövriyyəsinin artırılması, bağlantılar, enerji, sərmayələr və digər istiqamətlərdə əməkdaşlığın daha da möhkəmləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Yük axınlarının "ağıllı" idarə edilməsi dövrü başlayır

Müasir dövlət kimi inkişaf edən Azərbaycan idarəetmədə innovativ texnologiyaların tətbiqi yolu ilə səmərəliliyin artırılmasını, inklüzivliyin və şəffaflığın təmin olunmasını hədəfləyən islahatları davam etdirir. Bu siyasətə uyğun olaraq Prezident İlham Əliyev 16.11. 2026-cı il tarixində "Bir pəncərə" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə fərman imzalayıb.

Fərmanla müvafiq sahədə "Bir pəncərə" informasiya sisteminə keçidin hüquqi, təşkilatı və texnoloji əsasları müəyyənləşdirilir. Sənədə əsasən, məlumatların ilkin mənbəyini formalaşdıran dövlət orqanları (qurumları) idxal-ixrac, tranzit, nəqliyyat və logistika üzrə fəaliyyətin tam rəqəmsallaşdırılması məqsədilə, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təklifləri əsasında, altı ay müddətində sahibi və ya operatoru olduqları dövlət informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsi və Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə "Bir pəncərə" informasiya sisteminə inteqrasiyası ilə bağlı tədbirlər görməli, Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etməlidir.

"Bir pəncərə" informasiya sistemi özündə nəyi ehtiva edir?

Azərbaycan özünün ardıcıl səciyyə daşıyan siyasətini ölkənin artan imkanlarını və meydana çıxan qlobal çağırışları mütləq qaydada nəzərə almaqla daim yeniləyir. "Bir pəncərə" informasiya sisteminin yaradılması da müasir çağırışdır və indiki mərhələdə respublikamızın iqtisadi siyasət prioritetləri ilə tam adekvatlıq təşkil edir. Hazırda milli iqtisadiyyatımızda qeyri-neft sektoruna sürətli keçid edilir. O cümlədən neftdənkənar sahələrdə buraxılan məhsulların ixrac həcmlərinin artırılması hədəflənib. Xüsusilə də Azərbaycanın nəqliyyat-logistika sahəsində geniş imkanları var. Bu imkanlar hazırda regional və qlobal miqyasda müşahidə edilən kataklizmlər fonunda ölkəmiz üçün böyük fürsətlər deməkdir. Respublikamız son dərəcə əlverişli coğrafiyada yerləşməsi, eyni zamanda, müasir nəqliyyat-logistika infrastrukturuna malik olması, möhkəm daxili sabitliyi və təhlükəsizlik mühiti ilə daşıma şirkətlərinin diqqətini özünə cəlb edir. Bunu son illərdə ölkə ərazisindən tranzit daşımaların həcminin artması da təsdiqləyir. Proqnozlar onu deməyə əsas verir ki, biz daha böyük həcmlərdə tranzit yüklərini qarşılamağa hazır olmalıyıq.

"Bir pəncərə" informasiya sisteminin yaradılması da məhz bu məqsədə xidmət edir. Yeni informasiya sisteminin formalaşdırılmasının məqsədi xarici ticarətin tənzimlənməsi sahəsində dövlət idarəetmə mexanizminin təkmilləşdirilməsindən, dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin səmərəli şəkildə əlaqələndirilməsindən, o cümlədən idxal-ixrac, tranzit, nəqliyyat və logistika əməliyyatları üzrə vahid giriş imkanı əsasında tam rəqəmsal mühitin yaradılmasından, yük axınlarının "ağıllı" idarə edilməsindən, eləcə də bu sahə üzrə təhlillərin aparılmasından, proqnoz və hesabatların hazırlanmasından və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsindən ibarətdir.

Yeni informasiya sisteminin texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentləri özündə cəmləşdirir:

- proqram-texniki vasitələr və proqram təminatı;
- telekommunikasiya qurğuları və kanalları;
- informasiya ehtiyatı və onu idarəetmə paneli;
- ehtiyat nüsxələr;
- istismaraqədərki formalaşma mühitləri.

İnformasiya sisteminin strukturuna daxil olan "Ticarət bələdçisi", "Dövlət xidmətləri", "Biznes xidmətləri", "Təhlil və hesabatlılıq", "Məlumatlandırma", "İdarəetmə" kimi altsistemləri məlumatlara operativ çıxışı asanlaşdırır. "Ticarət bələdçisi" altsistemi vasitəsilə idxal-ixrac, tranzit, nəqliyyat və logistika əməliyyatlarının həyata keçirilməsi, sərhədkeçmə prosedurları (ölkəyə gəlmə, qeydiyyat və ölkədən getmə), daşıma qaydaları və şərtləri, habelə tələb edilən sənədlər (məlumatlar) haqqında məlumatlandırma, informasiya sorğularının göndərilməsi və cavablandırılması təmin edilir. "Dövlət xidmətləri" altsistemi vasitəsilə idxal-ixrac, tranzit, nəqliyyat və logistika əməliyyatları üzrə sahibkarlıq subyektlərinə göstərilən dövlət xidmətləri ilə bağlı müraciətlərin qəbulu, emal edilməsi üçün aidiyyəti dövlət informasiya sistemlərinə və ehtiyatlarına göndərilməsi, habelə müraciətlərin normativ hüquqi aktlara uyğun olaraq cavablandırılması həyata keçirilir.

Ölkəmizin beynəlxalq ticarət zəncirində mövqeyi daha da güclənəcək

"Bir pəncərə" informasiya sisteminin yaradılmasının önəmini həm geosiyasi kontekstdə, həm də daxili iqtisadiyyata, yerli biznesə təsiri nöqteyi-nəzərindən dəyərləndirmək mümkündür. Dövlət başçısının fərmanı ilə müvafiq Əsasnamənin təsdiqlənməsi Azərbaycanın beynəlxalq təchizat zəncirlərində mövqeyini daha da gücləndirəcək. Müasir dünyada tranzit ölkələrin üstünlüyü yalnız infrastrukturla - avtomobil yolları, dəmir yolları, limanlar, dəniz donanması, hava nəqliyyatı ilə müəyyən edilmir. İndi yüksək rəqabətqabiliyyətlilik həm də məlumatlara çıxış imkanları, məlumatların rəqəmsal platformalar üzərindən emal olunması və operativ qaydada təhlükəsiz ötürülməsi kimi amillərlə ölçülür. İndiyədək Azərbaycan böyük həcmlərdə sərmayə qoyuluşu hesabına ölkə ərazisində son dərəcə əlverişli nəqliyyat-ligistika infrastrukturu qurmağa nail olub. İnformasiya bazasınıın rəqəmsallaşdırılması və onlara onlayn platformalar üzərindən asan çıxış imkanlarının yaradılması Azərbaycana yeni üstünlüklər qazandıracaq. Qeyd edək ki, ölkəmizdə xarici ticarət əməliyyatları üzrə məlumatları, xidmətləri və prosesləri vahid rəqəmsal ekosistemdə birləşdirən "Bir pəncərə" informasiya sistemi - rəqəmsal logistika platformasının bir neçə ay bundan əvvəl rəsmi təqdimatı olub. Platforma Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 dekabr 2025-ci il tarixli 547 nömrəli fərmanına uyğun olaraq Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən yaradılıb. Sistem idxal, ixrac, tranzit və nəqliyyat əməliyyatları üzrə məlumatları, xidmətləri və sənəd dövriyyəsini inteqrasiya edərək xarici iqtisadi fəaliyyət iştirakçılarına proseslərə daha sadə, şəffaf və izlənilə bilən çıxış imkanı yaradır. Bu yanaşma sahibkarlar üçün inzibati yükün azaldılmasına, dövlət xidmətlərinə çıxışın sadələşdirilməsinə və xarici ticarət proseslərinin daha səmərəli təşkilinə xidmət edir. Uzunmüddətli perspektivdə isə daha çevik və dayanıqlı xarici ticarət ekosistemi biznes mühitinin rəqabət qabiliyyətinin yüksəldilməsinə, ticarət proseslərinin optimallaşmasına, ölkənin iqtisadi inkişaf məqsədlərinin dəstəklənməsinə və vətəndaşların istifadə etdiyi məhsul və xidmətlərin təchizat zəncirinin daha dayanıqlı təşkilinə töhfə verir.



"Bir pəncərə" informasiya sistemminin yaradılmasının yerli iqtisadiyyata təsirləri də müsbət olacaq. Əvvəla, nəqliyyat və logistika xidmətlərinin rəqəmsal həllərlə təqdim olunması daxili bazar iştirakçıları qarşısında geniş imkanlar açır. Bu imkanlar məmur-sahibkar təmaslarının aradan qaldırılması, neqativ hallara yol verilməməsi, operativlik və şəffaflıq, əməliyyat xərclərinin optimallaşması deməkdir. Eyni zamanda, yerli sahibkarlar fəaliyyətlərini beynəlxalq standartlar səviyyəsində qurmaq vərdişlərinə yiyələnəcəklər. Əlbəttə ki, onların xarici tərəfdaşlarla əlaqələri də genişlənəcək.

Mübariz ABDULLAYEV

Sülhə doğru addım...

İrəvan yeni Konstitusiya layihəsini təqdim edir

Postmüharibə dövründə Azərbaycanın irəli sürdüyü sülh təşəbbüsləri Cənubi Qafqazda davamlı sabitliyin təmin olunması, qarşılıqlı etimadın formalaşdırılması və regionun yeni inkişaf mərhələsinə qədəm qoyması baxımından mühüm əhəmiyyət daşıyır. Rəsmi Bakı Ermənistanla münasibətlərin normallaşmasını yalnız iki ölkə arasında münaqişə səhifəsinin bağlanması ilə bitirmir - həm də bütövlükdə regionun iqtisadi, siyasi və nəqliyyat potensialının reallaşdırılmasına yeni bir nəfəs verir. Azərbaycan sülh gündəliyini irəli sürməklə Ermənistana onilliklər ərzində davam edən qarşıdurmadan uzaqlaşmaq, iqtisadi təcrid vəziyyətindən çıxmaq, regional əməkdaşlıq imkanlarından yararlanmaq və qonşu dövlətlərlə qarşılıqlı faydalı münasibətlər qurmaq üçün yeni perspektivlər açır. Bu baxımdan sülh Ermənistan üçün sadəcə müharibənin başa çatması deyil, təhlükəsizliyə, iqtisadi inkişafa, kommunikasiyaların açılmasına və daha geniş əməkdaşlıq məkanına inteqrasiyaya aparan strateji fürsətdir. Bu fürsətin reallaşması isə ilk növbədə İrəvanın siyasi iradəsindən və sülh prosesinə konstruktiv yanaşmasından asılıdır. Azərbaycanın irəli sürdüyü tələblərə riayət olunacağı təqdirdə ötən ilin avqustunda Vaşinqtonda paraflanmış sülh sazişi layihəsi imzalanacaq və Cənubi Qafqazın həyatında yeni bir mərhələnin başlanğıcına çevirləcək.

Sülhə maneə...

Vurğulandığı kimi, qalib dövlət olan Azərbaycan həm regionun, həm də ümumilikdə Avrasiyanın geostrateji imkanlarını genişləndirir. Bakı revanşist ritorikadan çıxış etməyərək Ermənistanla münasibətlərin normallaşdırılması üçün konkret strateji yol xəritəsi təqdim etdi və bu da nəticə etibarı ilə,



bölgədə davamlı sabitlik üçün ilkin meyara çevrildi. Bölgənin inkişafının sülhdən asılı olduğu qədər, sülhün də bir çox təsirlərdən qorunmasına ehtiyac var. İlk növbədə bölgədə davamlı sabit vəziyyət yaratmaq üçün Ermənistan rəsmi şəkildə Azərbaycan torpaqlarına əsassız iddiadan imtina etməlidir. Xüsusilə, Ermənistan Konstitusiyasında Azərbaycan ərazilərinə qarşı iddiaların aradan qaldırılması kimi bir addım zəruri xarakter daşıyır. Başqa sözlə, daimi sülh üçün həm də hüquqi baza möhkəm olmalıdır. Konstitusiya dəyişiklikləri, normativ sənədlərin uyğunlaşdırılması və cəmiyyətin sülhə hazırlanması bu prosesin ayrılmaz hissəsidir. Əks halda, imzalanacaq sənəd uzunömürlü olmaya bilər. Bu baxımdan sülh müqaviləsi regionun gələcəyi üçün həlledici sənəd olmalıdır.

Konstitusiya layihəsi müzakirəyə çıxarılır

Yeri gəlmişkən, Ermənistanın yeni konstitusiyasının layihəsi növbəti həftə ərzində ictimaiyyətə təqdim ediləcək. Bu prosesdən sonra müvafiq dinləmələrin və müzakirələrin keçirilməsi planlaşdırılır, daha sonra sənəd parlamentin baxışına göndəriləcək. Bu barədə Ermənistanın "Joxovurd" qəzeti məlumat yayıb. Xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyan noyabrın 2-də parlamentin daimi komissiyalarının birgə iclasında bildirmişdi ki, yeni Konstitusiyasının layihəsi noyabr ayında ictimaiyyətə təqdim edilməsi planlaşdırılır. "Biz yeni Konstitusiya layihəsini dərc edəcəyik, ictimai müzakirələr başlayacaq, daxil olan təkliflər təqdim edilərək nəzərdən keçiriləcək. Bu proses yeni Konstitusiya layihəsinin cəmiyyətimiz tərəfindən kifayət qədər geniş müzakirə olunduğuna əmin olana qədər davam edəcək", - deyə Paşinyan bildirmişdi. Baş nazir qeyd etmişdi ki, qarşıda duran hökumət vəzifələrinin ən mühümlərindən biri Azərbaycanla sülh sazişinin imzalanması və ratifikasiya edilməsidir.

Bir neçə gün öncə isə Ermənistanın ədliyyə naziri Srbuhi Qalyan jurnalistlərə açıqlamasında bildirmişdi ki, Ermənistanın yeni konstitusiya layihəsi hələ mart ayında hazır olsa da, sənədin ictimaiyyətə təqdim edilməsi və müzakirəsi təxirə salınıb. Nazir qeyd etmişdi ki, layihənin dərcinin və müzakirələrinin təxirə salınmasında məqsəd sənədin daha da təkmilləşdirilməsi olub. O, vətəndaşları sənədlə diqqətlə tanış olmağa, ona tənqidi yanaşmağa və öz təkliflərini bildirməyə çağırıb. Nazir vurğulamışdı ki, əsas məqsəd cəmiyyətdə mümkün qədər geniş razılıq əldə edilmiş Konstitusiya layihəsi hazırlamaq və onu referenduma çıxarmaqdır. Onun sözlərinə görə, Konstitusiya İslahatları Komissiyasında yeni konstitusiya layihəsinin mətninin 95 faizindən çoxu artıq nəzərdən keçirilib. Qalyan bildirmişdi ki, komissiya sənədin noyabr ayında ictimaiyyətə açıqlanmasından əvvəl daha bir iclas keçirməyə macal tapa bilər.

Ermənistan üçün perspektiv...

Beləliklə, münasibətlərin normallaşması Cənubi Qafqaz regionu üçün geostrateji, geoiqtisadi, geosiyasi mənada yeni üfiqlər açmaqla yanaşı, həm yaşadığımız coğrafiyaya, həm də ümumilikdə Şərq-Qərb kontenti üzrə münasibətlərə yeni bir ruh qazandırır.

Bölgədə davamlı sabit vəziyyət yaratmaq üçün Ermənistan rəsmi şəkildə Azərbaycan torpaqlarına əsassız iddiadan imtina etməlidir. Xüsusilə, Ermənistan Konstitusiyasında Azərbaycan ərazilərinə qarşı iddiaların aradan qaldırılması kimi bir addım zəruri xarakter daşıyır

Artıq Cənubi Qafqaz sözügedən Şərq-Qərb, Şimal-Cənub qlobal cəhətlərarası münasibətlərdə əsaslı dönüş nöqtəsi rolunu oynayacaq. Sülh prosesində əsaslı yolun gedildiyini nəzərə alsaq, qısa zamanda nəticəyə nail olunacağına da ümid yaranır. Azərbaycanın

Bakı Cənubi Qafqazda əbədi sülhün yaranması, qütblərarası münasibətlərdə yeni bir cığırın açılması, qlobal inteqrasiyanın sürətlənməsi üçün səy göstərir

mövqeyi hər zamankı kimi, açıq və şəffafdır: Bakı Cənubi Qafqazda əbədi sülhün yaranması, qütblərarası münasibətlərdə yeni bir cığırın açılması, qlobal inteqrasiyanın sürətlənməsi üçün səy göstərir. Yeni ticari münasibətlərin ən vacib geostrateji nöqtəsi sayılan Cənubi Qafqazın sabit və inkişafa yönəlik üstünlükləri göz önünə çıxaraq yeni dividendlər yaradacaq. Bu isə Ermənistan üçün də mühüm perspektiv deməkdir - İrəvan bu halda qlobal inkişaf tendensiyasının bir parçasına çevrilməklə yanaşı, özünün real sərhədlərini də müəyyənləşdirmiş olacaq...

P.İSMAYILOV

Milli Məclisin iclasında...
DSMF-nin 2027-ci il üçün gəlirləri 9 milyard 221 milyon manat təşkil edəcək

Milli Məclisin noyabrın 17-də keçirilən iclasında 2027-ci ilin büdcə zərfinə daxil olan məsələlərin müzakirəsi davam etdirilib. Millət vəkillərinin çıxışlarından sonra 2027-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Sonra "Dövlət Sosial Müdafiə Fondunun 2027-ci il büdcəsi haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb. Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev çıxış edərək bildirib ki, sosial siyasət Azərbaycan dövlətinin daxili siyasətində daim prioritet yer tutub. Qeyd edilib ki, Dövlət Sosial Müdafiə Fondunun (DSMF-nin) 2027-ci il üçün gəlirləri 9 milyard 221 milyon manat təşkil edəcək ki, bu da cari ilin proqnoz göstəricisi ilə müqayisədə 897 milyon 400 min manat və ya 10,8 faiz çoxdur.

DSMF-nin xərcləri 9 milyard 273 milyon manat proqnozlaşdırılır

DSMF-nin 2027-ci il üçün nəzərdə tutulan xərcləri isə 9 milyard 273 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin göstəricisindən 790 milyon manat və ya 9,3 faiz çoxdur. Fondun daxilolmalarının 7 milyard 587 milyon manatının, yaxud 82,3 faizinin məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar hesabına formalaşması nəzərdə tutulur. Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 67,5 faizi qeyri-büdcə sektorunun, 32,5 faizi isə büdcədən maliyyələşən təşkilatların hesabına təmin ediləcək. Fondun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,5 faizini əhaliyə ödənişlər təşkil edəcək. Əmək pensiyalarının orta aylıq məbləğinin 2027-ci ildə 640 manat olacağı proqnozlaşdırılır. Əvvəlki illərdə olduğu kimi, cari və növbəti ildə də əvəzetmə əmsalı, yəni orta aylıq pensiya məbləğinin orta aylıq əməkhaqqı məbləğinə nisbəti 50 faiz həddini qoruyaraq Beynəlxalq Əmək Təşkilatının sosial təminatın 40 faizlik minimum normaları haqqında müvafiq konvensiyasına cavab verəcək.

2027-ci ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsinə 281 milyon manat vəsait nəzərdə tutulub.

Komitə sədri "İşsizlikdən sığorta fondunun 2027-ci il büdcəsi haqqında" qanun layihəsi barədə də məlumat verib. O bildirib ki, 2027-ci ildə İşsizlikdən Sığorta Fondunun (İSF-in) gəlirləri 269 milyon manat, fondun əvvəlki illərdə istifadə olunmamış vəsaitindən 2027-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən vəsaitin həcmi isə 50 milyon manat nəzərdə tutulub. Gələn ildə işsizlikdən sığorta haqları üzrə yığımların 267 milyon manat təşkil edəcəyi proqnozlaşdırılır ki, bu da 2026-cı ilin təsdiq edilmiş müvafiq göstəricisindən 31 milyon manat və ya 13 faiz çoxdur. 2027-ci ildə İSF-in xərcləri 319 milyon manat həcmində proqnozlaşdırılır ki, bu da keçən illə müqayisədə 53 milyon manat çoxdur. Gələn il fondun xərclərinin 36 milyon manatı işsizliyə görə sığorta ödənişləri üçün nəzərdə tutulub. Bu, cari ildəkindən 28,6 faiz çoxdur. İSF-in xərclərinin 113 milyon manatı, yaxud 35 faizi özünüməşğulluq tədbirlərinin maliyyələşməsinə yönəldiləcəkdir. 2027-ci ildə 14500 nəfərin özünüməşğulluq proqramına cəlb olunacağı nəzərdə tutulur.

Altıncı sosial islahat paketi ilə maliyyə təminatı yaradılıb

İclasda çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev bildirib ki, dövlət və icmal büdcə layihələri gələn il də öz sosial yönümlülüyünü saxlayacaq, əhalinin sosial müdafiəsi və məşğulluq imkanlarının daha da gücləndirilməsi üçün ciddi maliyyə təminatı yaradacaq. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, sayca altıncı sosial islahat paketi ilə bağlı 2027-ci ilin dövlət və icmal büdcə layihələrində müvafiq maliyyə təminatı yaradılıb.

Nazir vurğulayıb ki, son səkkiz ildə 4 milyon vətəndaşı əhatə edən beş böyük sosial islahat zərfi icra olunub və bu islahatların illik əlavə maliyyə tutumu 8 milyard manat təşkil edib. Aparılan islahatlar nəticəsində isə minimum əməkhaqqı 3,1 dəfə, orta aylıq əməkhaqqı 2,2 dəfə, minimum pensiya və orta pensiya 2,9 dəfə artıb. Sosial müavinət və təqaüd xərclərinin maliyyələşməsinə ayrılan vəsait beş dəfə yüksəlib. "Əlavə olaraq, yaşayış minimumu 73 faiz, ünvanlı dövlət sosial yardımının təyin edilməsi üçün ehtiyac meyarının həddi isə 2,3 dəfə artıb. İslahatlar əmək bazarına da öz müsbət təsirini göstərib. Belə ki, 2018-ci ilin əvvəli ilə müqayisədə əmək müqavilələrinin sayı 597 min və ya 48 faiz artıb. Ölkə üzrə əməkhaqqı fondu isə 3,5 dəfə artaraq əhalinin rifah halının yaxşılaşdırılmasına təsir göstərib" - deyə, o vurğulayıb.

A.Əliyev qeyd edib ki, əhalinin sosial müdafiəsi və məşğulluğu istiqamətində həyata keçirilən islahatlar cari ildə də konkret nəticələrlə özünü göstərir. Belə ki, cari ilin 10 ayı üzrə pensiya ödənişləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,3 faiz artaraq 6,5 milyard manat, müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımı üzrə ödənişlər isə 7,9 faiz artaraq 2,1 milyard manat təşkil edib. Bu dövrdə orta aylıq pensiya 10,3 faiz artaraq 596 manat, yaşa görə orta aylıq pensiya isə 10,1 faiz artaraq 634 manat olub. Pensiya ödənişlərinin orta aylıq əməkhaqqına nisbəti 51 faiz, yaşa görə pensiyada isə 54 faiz təşkil edib ki, bu da beynəlxalq əmək təşkilatının tövsiyə etdiyi 40 faizlik göstəricini üstələyib. Cari dövr üçün orta aylıq əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 8 faiz artaraq 1173 manata çatıb.



Gələn il yaşayış minimumu 314 manat olacaq

Nazir əmək və məşğulluq alt sisteminin məlumatlarına əsasən, ölkə üzrə əmək müqavilələrinin sayının ötən ilin eyni dövrünə nisbətən 1,2 faiz artdığına da diqqət çəkib: "Burada xüsusi vurğulamaq istədiyim məsələ məşğulluğun strukturunda özəl sektorun xeyrinə davamlı olaraq dəyişikliklərin baş verməsidir. Belə ki, ötən ilin eyni dövrü ilə müqayisədə özəl sektorda əmək müqavilələrinin sayı 5,8 faiz və ya 59 min artıb. Həmçinin əmək və məşğulluq alt sisteminin məlumatına əsasən, ölkə üzrə əməkhaqqı fondu da cari il 8,5 faiz yüksəlib".

Bildirilib ki, növbəti ildə nazirlik tərəfindən imtiyazlı şəxslərə mənzillərin, avtomobillərin və reabilitasiya vasitələrinin verilməsi proqramları da davam etdiriləcək. Qeyd olunub ki, şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə gələn il 600 mənzilin alınması üçün 40 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Qeyd edək ki, "Azərbaycan Respublikasında 2027-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsinə əsasən, gələn il yaşayış minimumu ölkə üzrə 314 manat, əmək qabiliyyətli əhali üçün 334 manat, pensiyaçılar üçün 258 manat, uşaqlar üçün 274 manat məbləğində müəyyən edilməklə, illik artım tempi saxlanılıb. "Azərbaycan Respublikasında 2027-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsində isə bu həddi 314 manat məbləğində müəyyən olunub.

Nardar BAYRAMLI

Banklardakı əmanətlər vergiyə cəlb oluna bilər

2026-cı ildə Vergi Məcəlləsində nəzərdə tutulan vergi güzəştlərinin bir qisminin müddəti başa çatır. Vergi qanunvericiliyinə əsasən, həmin güzəşt və azadolmalarının müddətinin 2027-ci ildə yenidən uzadılması nəzərdə tutulur. Ancaq bəzi sahələrdə istisnalar var. Belə ki, məcəllədə bəzi güzəştlərin, o cümlədən, bank əmanətlərindən əldə edilən gəlir vergisinə tətbiq edilən güzəştin müddətinin artırılması nəzərdə tutulmayıb. Bu isə yeni ildən əmanətlərdən aylıq 10 faiz həcmində vergi tutulacağını deməyə əsas verir.

Xatırladaq ki, hökumət bank sektorunda kapitallaşmanı artırmaq və əhalinin banklara əmanət qoyuluşlarını həvəsləndirmək məqsədilə bir neçə ildir ki, depozitlərdən əldə edilən gəlirlərə vergi güzəşti edir. Ötən illər ərzində həmin güzəştlərin müddəti bitsə də, bir neçə dəfə artırılıb, bəzi hallarda güzəşt olunmayıb. Belə ki, 2016-cı ildə vergi tutulması ilə bağlı fərqli fikirlər meydan çıxsa da, hökumətin təşəbbüsü ilə həmin il fevralın 1-dən etibarən yenidən 7 il müddətində yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən illik faiz gəlirləri gəlir vergisindən azad olundu. Azadolmanın müddəti 2023-cü il 1 fevral tarixində bitdi. Ancaq güzəşt müddəti həmin il artırılmadı və bu tarixdən etibarən banklar tərəfindən əmanətlər üzrə faiz gəlirlərindən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutuldu.



Güzəştin bank sektoruna hansı təsirləri var?

2023-cü ildə bank əmanətlərindən 10 faiz gəlir vergisinin tutulması depozitlərdə azalmaya gətirib çıxardı. Faktiki olaraq fevraldan sonrakı dövrdə hər ay depozitlər 140-150 milyon manat azaldı, bu isə bankların böyük bir qisminin kapital ehtiyatlarını da risk altına saldı. Çünki Azərbaycanda bankların böyük əksəriyyətinin maliyyə portfeli əmanətlərdən formalaşır və onlar əhalidən yığdıqları əmanətlərlə kredit verir, gəlirlərinin böyük bir hissəsini bu yolla təmin edir. Ona görə də kommersiya bankları Mərkəzi Bank (MB) qarşısında məsələ qaldıraraq əmanətlərə tətbiq olunan vergilərin ləğvini xahiş etdi.

Vəziyyətdən qayğılanan Mərkəzi Bank vergi orqanı ilə apardığı müzakirələrin yekununda optimal yol tapmağı bacardı, daha doğrusu, vergilərin yenidən dayandırılmasına nail oldu. MB-nın təklifini dəyərləndirən hökumət 2024-cü il yanvarın 1-dən etibarən vətəndaşların banklardakı əmanətlərinin faizlərinin gəlir vergisindən azad olunması haqqında qanunu yenidən tətbiq etdi. Vergi Məcəlləsinin 102.1.22-ci maddəsinə əlavə və dəyişikliklər qüvvəyə mindi və yerli banklar və xarici bankların Azərbaycan Respublikasında fəaliyyət göstərən filialları tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri gəlir vergisindən azad edildi. Belə ki, yerli bank və xarici bankın Azərbaycan Respublikasındakı filialı tərəfindən fiziki şəxslərin hər bir bankda milli valyutada olan depozitlər üzrə hesablanan aylıq faiz gəlirlərinin 200 manatadək olan hissəsi və eləcə də milli valyutada olan depoziti 18 ay və daha artıq müddətə yerləşdirildikdə və depozitin məbləği 18 aydan tez olmayaraq ödənildikdə hesablanan faiz gəlirlərinin tam hissəsi gəlir vergisindən azad olundu.

Güzəştlər əhalinin depozit bazarına marağını yenidən bərpa etdi və əmanətlərin həcmi yüksəldi. 2024-2025-ci illərdə bank sektorunda depozit poertfelinin həcmi təxminən 40 milyard manatı ötüb. Təkcə fiziki şəxslərin əmanətlərinin həcmi 16,7 milyard manata yüksəlib. Hüquqi şəxslərin depozitləri isə 24,5 milyard manatı ötmüşlə, bank sektoru üzrə toplam depozit portfeli 2025-ci il dekabrın 31-də son illərin ən yüksək rekordunu nümayiş etdirib.

Bu tendensiya 2026-cı ilin ötən 10 ayı (yenvar-oktyabr)ərzində də davam edib, fiziki şəxslərin banklardakı əmanətlərində 19,3 faiz artım qeydə alınmaqla, həmin sektor üzrə cəmi depozitlərin həcmi 18 milyard 840 milyon manat təşkil edib. Hüquqi şəxslərin depozitləri isə bu dövrdə 25 milyard manat təşkil edib. Bu ssenariyə əsasən, cari ilin sonunda bank sektorunun toplam depozit portfeli 43-44 milyard manata çatacaq.

Güzəşt müddətinin uzadılması bank sektoru üçün vacibdir

2024-cü ildə qüvvəyə minən bank əmanətlərinin faizlərinin gəlir vergisindən azad olunması haqqında qanunun müddəti 3 il nəzərdə tutulduğundan güzəştin müddəti gələn il yanvarda başa çatır. Bu isə 2027-ci ilin yanvarın bank əmanətlərindən əldə edilən gəlirlərə verginin tətbiq olunması deməkdir. Yəni, növbəti ildən bir bankda milli valyutada olan depozitlər üzrə hesablanan aylıq faiz gəlirlərinin 200 manatdan çox olan hissəsi üzrə gəlir vergisinə cəlb olunur. Məsələn, hazırda bankda olan əmanətin aylıq gəliri 500 manatdırsa, yeni ildən etibarən onun 300 manatından 10 faizlik gəlir vergisi tutulur.

Vergi tətbiqi 2023-cü ildəki vəziyyəti təkrarlaya bilərmi?

Vətəndaşların öz pullarının dəyərinin itməsini nəzərə alaraq 2023-cü ildəki addımı atması mümkündür. Əhalinin bir qismi həm banklar tərəfindən aşağı salınan dividend gəlirlərini, həm də vergi tutulmasını nəzərə alaraq öz pullarını geri çəkməyə qərar verə bilər. Bu isə ümumilikdə, bank sektorunda depozit portfelinin azalması fonunda bəzi kommersiya bankları üçün kapitallaşma problemini yenidən meydana çıxarmış olur.

Milli Məclisin deputatı Vüqar Bayramov da bunu istisna etmir. İqtisadçı hesab edir ki, hazırda bank əmanətlərinə vergi tətbiqi ümumi bank sektoru üçün narahatlıqlar yarada bilər. Ona görə də, banklarda 18 ay və daha artıq müddətə yerləşdirilən əmanətlərin də daha 3 il müddətində gəlir vergisindən azad edilməsi məqsədəuyğun sayılır. Yəni, əmanətlər ilə bağlı vergi güzəştlərin müddətinin gələn ildən etibarən daha 3 il müddətinə uzadılması arzuolunandır. Güzəşt müddətinin uzadılması bank sektorunda aparılan islahatların vergi-fiskal siyasət ilə daha yaxından dəstəklənməsi və eləcə də depozit portfelində uzunmüddətli öhdəliklərin payının artırılması baxımdan da vacibdir.

E.CƏFƏRLİ

Qeyri-neft ixracını artıracaq yeni hədəflər

Bir ixrac bəyannaməsi üzrə kompensasiyanın yuxarı həddi müəyyənləşib

İqtisadiyyat Nazirliyinin (İN) Kollegiyası "İxrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyinin şamil olunacağı qeyri-neft-qaz mallarının və onların ixrac edildiyi ölkələrin Siyahısı"nı və "İxrac daşıma dəstəyinin şamil olunacağı qeyri-neft-qaz mallarının və onların ixrac olunduğu ölkələrin Siyahısı"nı təsdiqləyib. Qərara əsasən, siyahılara ərzaq məhsulları, alkoqollu və alkoqolsuz içkilər, əczaçılıq məhsulları, canlı ağaclar və digər bitkilər, müxtəlif bitkilər və hissələri, çiçəklər və dekorativ bitkilər, boyalar, aşılayıcı və boyayıcı ekstraktlar, ətriyyat, kosmetika vasitələri, yuyucu vasitələr, plastmas borular, rezin və onlardan hazırlanan məmulatlar, dəri məmulatları, heyvanların daxili orqanlarından hazırlanan məmulatlar, xalçalar və digər tekstil döşəmə örtükləri, qiymətsiz metallardan hazırlanan digər məmulatlar, nüvə reaktorları, qazanlar, avadanlıq və mexaniki qurğular, elektrik maşınlar və avadanlıqlar və digər mallar daxildir.

İxrac rəsmiləşdirilmə və daşıma xərclərinə görə kompensasiya dəstəyinin şamil olunacağı qeyri-neft-qaz mallarının ixrac olunduğu ölkələrin siyahısına Afrika ölkələri, Avropa İttifaqı, Balkan ölkələri, Körfəz ölkələri və Mərkəzi Asiya, Cənub-Şərqi Asiya və bir sıra digər ölkələr aid edilib.

İN-nin Kollegiyası "Bir ixrac gömrük bəyannaməsi üzrə ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyi məbləğinin Yuxarı Həddi"ni də təsdiqləyib. Qərara əsasən, Bir ixrac gömrük bəyannaməsi üzrə ixrac rəsmiləşdirilmə xərclərinə görə kompensasiya dəstəyi məbləğinin yuxarı həddi Azərbaycan mənşəli qeyri-neft-qaz mallarının ixrac gömrük proseduru altında yerləşdirilməsi zamanı mikro, kiçik və orta sahibkarlıq subyekti olan ixracatçılar tərəfindən ödənilmiş gömrük rəsmiləşdirilməsi üzrə gömrük yığımlarının məbləği qədər, lakin 1 min manatdan yuxarı olmamaqla müəyyən edilib.

Aşağı tarifli gömrük prosedurlarının tətbiqi

İN ixrac xərclərinin kompensasiyası üçün müraciətlərə baxılması qaydasını da təsdiqləyib. Qərara əsasən, dəstək üçün ərizə ilə müraciət edən şəxslər "İnzibati icraat haqqında" qanunun 30.2-ci maddəsində nəzərdə tutulan məlumatları, ölkə ərazisində fəaliyyət göstərən bank və ya elektron pul təşkilatlarında açılmış hesabının rekvizitləri, ixrac olunan malın xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kodu, adı, gömrük dəyərini, ixrac gömrük bəyannaməsinin sorğu və mənşə sertifikatının nömrəsini təqdim etməlidir. Bundan başqa, dövlət dəstəyin məbləğinin ödənilməsi sahibkarın hesabına köçürüləcək.



Biznes və ticarət iştirakçıları üçün nəzərdə tutulan yeni qaydalar ölkəmizin şaxələndirilmiş nəqliyyat-logistika imkanlarından və informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməklə ixrac potensialının daha da yüksəldilməsi, transsərhəd ticarətin, o cümlədən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsinə hesablanıb. Hökumət qeyri-neft sektorunun inkişafını prioritet hesab edir və ölkənin iqtisadi dayanıqlılığının gücləndirilməsi, dünyada cərəyan edən mürəkkəb geosiyasi proseslərin, qlobal tədarük zəncirindəki qırılmaların və xarici bazarlardakı qeyri-sabitliyin milli iqtisadiyyata mənfi təsirlərinin minimallaşdırılması məqsədilə belə bir addım atır. Həmçinin ölkənin strateji iqtisadi suverenliyinin təmin edilməsi baxımından neftdənkənar sahələrin inkişafının xüsusi əhəmiyyət daşıdığı nəzərə alınaraq yerli malların xarici bazarlara çıxış imkanlarını daha da



gücləndirmək istəyir. Ona görə də, bütün bu tədbirlər ixracyönümlü iqtisadiyyata keçidin təmin olunması, Avropa, Asiya və digər region ölkələri ilə əlverişli ticarət sazişlərinə əsaslanan aşağı tarifli mühitdə səmərəli gömrük prosedurlarının tətbiqi məqəsdi daşıyır.

Gömrük rəsmiləşdirilməsi və daşınma xərclərinin kompensasiyası

Qeyd edək ki, dövlətin ixraca dəstəyinin artırılması məqsədilə cari il sentyabrın 1-dən etibarən Azərbaycan mənşəli qeyri-neft-qaz məhsullarının ixracı zamanı sahibkarların qarşılaşdığı gömrük rəsmiləşdirilməsi və daşınma xərclərinin bir hissəsi dövlət büdcəsi hesabına kompensasiya edilir. Dövlət başçısının "Mikro, kiçik və orta biznesin inkişafı, investisiyaların və ixracın təşviqi sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" fərmanına uyğun olaraq, qeyri-neft-qaz sektorunda fəaliyyət göstərən ixracatçıların daşıma xərclərinin 70 faizədək hissəsi dövlət tərəfindən qarşılanır, bəzi gömrük rəsmiləşdirilməsi xərcləri isə kompensasiya olunur.

Daşıma xərclərinin subsidiyalaşdırılması dəmir yolu, hava və dəniz nəqliyyatı, eləcə də Azərbaycanda qeydiyyatda olan avtomobillərlə həyata keçirilən daşımalar üçün nəzərdə tutulub. Xaricdə qeydiyyatda olan avtomobillərdən istifadə zamanı isə dövlət dəstəyi 50 faiz, işğaldan azad edilmiş ərazilərdə verilən kreditlərin əsas borcunun 90 faiz, digər regionlarda isə (Bakı və Abşeron istisna olmaqla) 50 faiz hissəsinə dövlət zəmanəti təqdim olunur.

Beynəlxalq məhsul sertifikatlarının alınmasını da dövlət maliyyələşdirəcək

Logistik zəncirin mürəkkəbliyi və uzaq məsafəli daşımaların malın maya dəyərindəki xüsusi çəkisinin yüksək olması ixracın mallar üzrə və coğrafi şaxələndirilməsinə maneə yaradan amillərdən biridir. Bu nəticə etibarilə qeyri-neft-qaz mallarının ümumi ixracdakı payının potensial imkanlardan aşağı qalmasına səbəb olur. Bu məqsədlə ixracla bağlı digər addım dövlətin institusional və maddi dəstəyinin artırılmasıdır. Artıq 2 aydır ki, dövlət qeyri-neft məhsulları ixracatçılarına çəkdikləri logistikası xərclərinin 70 faizinə subsidiya verir və xərclər dövlət tərəfindən qarşılanır. Subsidiya Şurasının qərarına əsasən, 2027-ci ildən beynəlxalq məhsul sertifikatlarının alınması da dövlət tərəfindən maliyyələşdiriləcək. Söhbət Global G.A.P, ISO və orqanik məhsul sertifikatları kimi beynəlxalq standartlardan gedir.

Sözsüz ki, ixrac rəsmiləşdirilmə xərclərinə və qeyri-neft mallarınən ixracına görə, kompensasiya dəstəyi, digər güzəştlər regionlarda investisiya fəallığının artmasına, sahibkarların maliyyə yükünün azalmasına və qeyri-neft-qaz sektorunun inkişafına və ixracın artmasına əlavə stimul verəcək.

E.CƏFƏRLİ

Şərqi Avropa və Şimali Asiyada ən yüksək nəticə

Azərbaycan Beynəlxalq Telekommunikasiya İttifaqının Şurasına üzv seçilib

Noyabrın 16-da Doha şəhərində Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Səlahiyyətli Konfransı çərçivəsində keçirilmiş seçkilərdə Azərbaycan BTİ-nin Şurasının 2027-2030-cu illər üzrə üzvlüyünə seçilib. Azərbaycan təmsil olunduğu Şərqi Avropa və Şimali Asiya regionu üzrə ən yüksək səs toplayaraq 129 səslə BTİ Şurasına üzv qəbul olunub və BTİ-nin idarəetmə orqanında təmsil olunmaq hüququ qazanıb.

BTİ qlobal radio tezliklərin bölüşdürülməsini, peyk orbitlərini və informasiya-kommunikasiya texnologiyaları üzrə beynəlxalq texniki standartları idarə edən ixtisaslaşmış beynəlxalq təşkilatdır. 1992-ci ildən BTİ-nin üzvü olan ölkəmiz 2014, 2018 və 2022-ci illərdə ard-arda Şuraya, 2018 və 2022-ci illərdə isə RTK-ya üzv seçilib və bu illər ərzində təşkilatın fəailiyyətində fəal iştirak edir.

Azərbaycanın BTİ Şurasına ardıcıl dördüncü dəfə üzv seçilməsi və təqdim etdiyi namizədin Radio Tənzimləmə Komitəsində təmsil olunmaq hüququ qazanması beynəlxalq telekommunikasiya ictimaiyyətinin ölkəmizə göstərdiyi etimadın göstəricisidir.

35 ilə yaxın faydalı əməkdaşlıq

Azərbaycan - Beynəlxalq Telekommunikasiya İttifaqı münasibətlərinin 35 ilə yaxın tarixi var. Ölkəmiz 1992-ci ildə BTİ-yə üzv qəbul olunub və 1995-ci ildən sıx əməkdaşlıq münasibətləri müxtəlif layihələrdə özünü təsdiqləyib. Azərbaycan nümayəndə heyətləri BTİ-nin müxtəlif tədbirlərdə iştirak edib, eləcə də təşkilatın rəhbər heyəti dəfələrlə Bakı keçirilmiş Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransında iştirak ediblər.

Azərbaycanın işğal olunmuş ərazilərində informasiya və kommunikasiya texnologiyaları sahəsində qeyri-qanuni çalışan şirkətlərin fəaliyyətlərinə xitam verilməsi üçün BTİ üzv ölkələri arasında təmimi əsasda yayılması məqsədilə 2017-ci ildə Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən BTİ-nin baş katibinə müvafiq məktub ünvanlanıb, təşkilatın operativ reaksiyası sayəsində Azərbaycanın haqlı mövqeyi dəstəklənib.

BTİ ilə Azərbaycan arasında yüksək səviyyədə əməkdaşlıq, faydalı və işgüzar münasibətlər nəzərə alınaraq, 2015-ci ildə BTİ-nin 150-ci ildönümünü münasibətilə ölkəmiz təşkilatın 3 "Qızıl Tərəfdaş"ından biri seçilib.



Beləliklə, BTİ ilə Azərbaycan arasında əməkdaşlıq hər il yeni istiqamətlər üzrə daha da güclənir, rəqəmsal inkişafın tələblərinə uyğun yeni layihələrə qərar verilir. Bu baxımdan BTİ Şurasında təmsilçilik ölkəmizə təşkilatın strateji prioritetlərinin və fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsində, mühüm qərarların qəbulunda, eləcə də qlobal rəqəmsal gündəliyin formalaşdırılmasında birbaşa iştirak etmək imkanı yaradacaq.

Rəqəmsal transformasiyanın inkişafına dəstək

Azərbaycanın İKT potensialının, Rəqəmsal İnkişaf Şurası çərçivəsində həyata keçirilən işlərin, rəqəmsallaşma üçün yaradılmış imkanların və son illərdə reallaşdırılmış əsas rəqəmsal layihələrin üzv ölkələrlə paylaşılması, eləcə də təcrübə mübadiləsinin aparılması Azərbaycanın gələcəkdə rəqəmsal məhsul və xidmətlər üzrə ixrac potensialının artırılmasına xidmət edəcək.

Şuraya üzvlük, həmçinin Azərbaycanın regional və qlobal müstəvidə rəqəmsal elm, səhiyyə, təhsil, ticarət, iqtisadiyyat və təhlükəsizlik sahələrində əməkdaşlığını gücləndirəcək, rəqəmsal transformasiyanı və texnologiya bazarının inkişafını dəstəkləyən qanunvericilik və siyasətlərin koordinasiyasına töhfə verəcək.

E.CƏFƏRLİ

MDB-də ilk innovasiya ekosistemi - BTİ-nin Bakı Akselerasiya Mərkəzi

2025-ci ildə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında BTİ Regional Akselerasiya Mərkəzinin yaradılması ilə bağlı Əməkdaşlıq Sazişinin təsdiq edilməsi münasibətlərdə yeni mərhələni başladı. Regional Akselerasiya Mərkəzinin əsas prioritetləri startapların, biznes subyektlərinin, dövlət qurumları və təhsil müəssisələrinin əməkdaşlığı vasitəsilə innovativ sahibkarlıq potensialının gücləndirilməsi, ekosistemdə bilik və təcrübə mübadiləsinin, eləcə də beynəlxalq şəbəkələşmənin təşviqidir ki, bu istiqamətdə uğurlu addımlar atılmaqdadır.

Yeri gəlmişkən, BTİ Regional Akselerasiya Mərkəzi MDB bölgəsində ilk olaraq Azərbaycanda açılıb ki, bu da ölkəmizə olan dərin etibarın nümunəsidir. Mərkəz Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri arasında innovativ ekosistemlərin əlaqələndirilməsi, KOB-lar, böyük şirkətlər, dövlət qurumları, universitetlər, tədqiqatçılar, investor və QHT-lərin regional innovasiya layihələrinə inteqrasiyasının sürətləndirilməsi istiqamətində hədəflər müəyyənləşdirib. Bununla yanaşı, innovasiya ekosistemində bazar və maliyyə əlçatanlığı, infrastruktur imkanları və insan kapitalının inkişafı təşviq edilməkdədir.

BTİ Regional Akselerasiya Mərkəzi MDB bölgəsində ilk olaraq Azərbaycanda açılıb ki, bu da ölkəmizə olan dərin etibarın nümunəsidir. Mərkəz Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri arasında innovativ ekosistemlərin əlaqələndirilməsi, KOB-lar, böyük şirkətlər, dövlət qurumları, universitetlər, tədqiqatçılar, investor və QHT-lərin regional innovasiya layihələrinə inteqrasiyasının sürətləndirilməsi istiqamətində hədəflər müəyyənləşdirib

Müşahidə, yoxsa gizli missiya?

Aİ-nin Ermənistandakı "durbin komandası"nın ləğvi zəruridir

3 Avropa dövlətinin polis attaşesi sərhəddə nə axtarır?

Azərbaycanın Cənubi Qafqazda həyata keçirdiyi siyasətin əsas məqsədi regionda davamlı sülhün, təhlükəsizliyin və qarşılıqlı faydalı əməkdaşlığın təmin edilməsidir. Rəsmi Bakı müharibədən sonrakı dövrdə formalaşdırdığı yeni reallıqları qarşıdurmanın davam etdirilməsi üçün deyil, bölgədə münasibətlərin tamamilə yeni müstəvidə qurulması üçün əsas hesab edir. Azərbaycanın təşəbbüsləri, regional kommunikasiyaların açılması, iqtisadi əlaqələrin genişləndirilməsi və Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində atdığı addımlar bu siyasətin konkret ifadəsidir. Xüsusilə 2025-ci il avqustun 8-də Vaşinqtonda əldə olunan razılaşmalar Cənubi Qafqazda uzunmüddətli sülhün təmin edilməsi üçün tarixi imkan yaradıb.

Təəssüfləndirici haldır ki, regionda yeni siyasi reallıqların qəbul edilməsi və sülh gündəliyinin irəli aparılması ilə bağlı bütün tərəflərin yanaşması eyni deyil. Ermənistanın bəzi addımları, xüsusilə xarici aktorların bölgədəki mövcudluğunun artırılmasına hesablanan qərarları etimad mühitinə mənfi təsir göstərir. Avropa İttifaqının Ermənistan ərazisində yerləşdirilmiş mülki müşahidə missiyasının fəaliyyətinin davam etdirilməsi də bu baxımdan ciddi suallar doğurur. Halbuki indiki mərhələdə əsas ehtiyac sərhədlərdə kənar müşahidəçilərin sayını artırmaq deyil, Azərbaycanla Ermənistan arasında birbaşa dialoqu, qarşılıqlı etimadı və sülhün praktiki mexanizmlərini gücləndirməkdir. Sülhün bəyanatlarla deyil, real addımlarla möhkəmləndirilməli olduğu bir vaxtda missiyanın fəaliyyətinin hansı zərurətdən irəli gəldiyi aydın izah edilməlidir. Eyni zamanda, nəzərə alınmalıdır ki, ötən ilin avqustunda Vaşinqtonda paraflanmış sülh sazişində həmçinin qeyd olunub ki, tərəflər sərhəddə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəklər. Bununla belə, Ermənistan imzaladığı sənədə riayət etmir...

Sülhə mane missiya...

Qeyd edək ki, Avropa İttifaqının Ermənistandakı mülki müşahidə missiyasının (EUMA) yaradılması 2022-ci ilin payızında regionda baş verən hadisələrdən sonra gündəmə gəlib. Həmin il oktyabrın 20-dən dekabrın 19-dək Avropa İttifaqının Gürcüstandakı müşahidə missiyasından olan mütəxəssislər Ermənistan-Azərbaycan sərhədinin Ermənistan tərəfində müvəqqəti müşahidə fəaliyyəti həyata keçiriblər. Ardınca Ermənistan hakimiyyətinin müraciəti əsasında Aİ Şurası 2023-cü il yanvarın 23-də yeni missiyanın yaradılması haqqında qərar qəbul edib. Fevralın 20-də isə EUMA rəsmi fəaliyyətə başlayıb. İlkin mərhələdə missiyanın təxminən 100 nəfərdən, o cümlədən 50-yə yaxın silahsız müşahidəçidən ibarət olması nəzərdə tutulmuşdu. Lakin qısa müddət sonra onun fəaliyyəti və heyəti genişləndirildi. 2023-cü il dekabrın 11-də Aİ Xarici İşlər Şurası missiyanın şəxsi heyətinin 138 nəfərdən 209 nəfərədək artırılmasını razılaşdırdı. 2025-ci ildə mandatın növbəti iki il müddətinə uzadılması ilə heyətin sayı 225 nəfərədək müəyyənləşdirildi: 166 beynəlxalq və 59 yerli əməkdaş. Onlar 25 Aİ üzv dövlətindən və Kanadadan olan nümayəndələrdir.

Burada diqqətçəkən əsas məqam missiyanın müvəqqəti xarakter daşımalı olduğu halda, fəaliyyət müddətinin ardıcıl şəkildə uzadılması və miqyasının genişləndirilməsidir. Aİ Şurasının 2025-ci il yanvarın 30-da qəbul etdiyi qərara



dikləri məlumatları Brüsselə təqdim edirlər. 2025-ci ilin aprelində missiya 5000-ci patrulunu həyata keçirdiyini açıqlamışdı. Deməli, söhbət epizodik səfərlərdən deyil, geniş ərazini əhatə edən, sistemli və davamlı müşahidə fəaliyyətindən gedir.

Əlbəttə, Aİ bu fəaliyyəti sülhə və təhlükəsizliyə töhfə kimi təqdim edir. Lakin prinsipial sual dəyişmir: əgər tərəflər arasında münasibətlərin normallaşdırılması istiqamətində real irəliləyiş varsa, sərhəddə kənar müşahidə mexanizminin əvvəlki miqyasda saxlanılması nəyə xidmət edir? Bu missiyanın fəaliyyəti hansı konkret təhlükənin mövcudluğunu təsdiqləyir? Hansı yeni faktlar onun genişləndirilməsini zəruri edir? Daha da əhəmiyyətlisi, müşahidə missiyasının mövcudluğu Ermənistan cəmiyyətində qarşı tərəflə bağlı təhlükə təsəvvürlərinin davam etməsinə şərait yaratmırmı? Bu, sülhə zərbə deyilmi?

qiymətləndirilir. Hətta bəyanatda Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi genişmiqyaslı bərpa və quruculuq işləri, mina probleminin miqyası qeyd olunur, humanitar minatəmizləmə sahəsində beynəlxalq dəstəyin artırılmasına çağırış edilir. Deməli, Aİ Azərbaycanın postmünaqişə dövründəki reallıqlarını və regionun inkişafı üçün gördüyü işləri də rəsmi sənəddə təsdiqləyir. Amma ortada ziddiyyət var - bir tərəfdən, Brüssel ayırıcı xətlərdən azad

3 ölkənin polis attaşesi nəyə "baxır"?

Ortaya maraqlı sual çıxır - Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəli aparıldığı, tərəflərin birbaşa dialoqun vacibliyini qəbul etdiyi bir vaxtda bu missiyanın genişləndirilməsinə hansı zərurət var? Regionda sülhün təmin olunması üçün yaradılan mexanizm niyə öz fəaliyyətinin miqyasını azaltmaq əvəzinə genişləndirir? Bu suallar Ermənistanın xarici aktorların bölgədəki mövcudluğuna münasibətinin də mahiyyətini açır.

Yeri gəlmişkən, İtaliya, Polşa və Niderlanddan olan polis attaşelərindən ibarət nümayəndə heyəti Avropa İttifaqının Ermənistandakı missiyasını ziyarət edib. Bu barədə Aİ-nin Ermənistandakı missiyası məlumat verib. "Missiya rəhbəri Satu Koivu həmkarları ilə birlikdə nümayəndə heyətini salamladı, missiyanın fəaliyyətini təqdim etdi, mövcud vəziyyət barədə məlumat verdi və nümayəndə heyətinin suallarını cavablandırdı", - deyə xəbər verilir. "Nümayəndə heyəti həmçinin missiyanın Qafan ofisini ziyarət edərək, Aqarak və Mehri ərazilərində patrul turunda iştirak edib", - deyə açıqlamada bildirilir.

Cənubi Qafqazda baş verən son hadisələr göstərir ki, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi artıq yeni mərhələyə qədəm qoyub. 2025-ci il avqustun 8-də Vaşinqtonda əldə edilən razılaşmalar, sonrakı siyasi təmaslar və son olaraq 2026-cı il noyabrın 12-də Dublin görüşündə sülh gündəliyinin davam etdirilməsi ilə bağlı müzakirələr tərəflərin qarşıdurmadan əməkdaşlığa keçmək imkanlarının mövcudluğunu təsdiqləyir. Artıq əsas müzakirə mövzuları sərhəddə hərbi qarşıdurma deyil, delimitasiya, nəqliyyat-kommunikasiya əlaqələri, ticarət və etimad quruculuğudur. Azərbaycan ərazisindən Ermənistana yük daşımalarının həyata keçirilməsi də yeni münasibətlərin formalaşmasının praktik göstəriciləridir.

Belə bir şəraitdə Ermənistan ərazisində, Azərbaycanla sərhəd boyunca Avropa İttifaqının 200-dən artıq əməkdaşının fəaliyyət göstərməsi hansı zərurətdən irəli gəlir? Və ya Avropa dövlətlərinin polis attaşelərinin sərhəddə nə işi var? Missiyanın öz açıqlamalarına görə, onun əməkdaşları patrullar həyata keçirir, təhlükəsizlik vəziyyətini müşahidə edir, yerli sakinlərlə görüşür və əldə etdikləri məlumatları Brüsselə təqdim edirlər. 2025-ci ilin aprelində missiya 5000-ci patrulunu həyata keçirdiyini açıqlamışdı. Deməli, söhbət epizodik səfərlərdən deyil, geniş ərazini əhatə edən, sistemli və davamlı müşahidə fəaliyyətindən gedir.

Sülh bəyanatları ilə missiyanın fəaliyyəti arasında ziddiyyət

Avropa İttifaqı rəsmiləri müxtəlif platformalarda Cənubi Qafqazda davamlı sülhün təmin olunmasını dəstəklədiklərini bəyan edirlər. Bu mövqenin ən aydın ifadələrindən biri Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın 2026-cı il martın 11-də Bakıya səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyevlə qəbul etdiyi birgə mətbuat bəyanatında öz əksini tapıb. Sənədin bəndlərində bildirilir ki, Cənubi Qafqazda sülh prosesi dəstəklənir, 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilmiş Zirvə görüşünün nəticələri və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində atılan addımlar yüksək

Cənubi Qafqaz istəyir, digər tərəfdən isə Ermənistan ərazisində sərhəd boyunca geniş müşahidə infrastrukturunun fəaliyyətini davam etdirir. Əgər Aİ həqiqətən də Azərbaycanın və Ermənistanın ikitərəfli dialoquna üstünlük verirsə, onda kənar müşahidə mexanizminin ləğvi aktuallaşmalıdır. Sülhü dəstəklədiyini bəyan edən qurumun fəaliyyəti yeni reallıqlara uyğunlaşmalı, tərəflər arasında etimadın güclənməsinə xidmət etməlidir. Əks halda, xoş niyyətli bəyanatlarla praktiki siyasət arasındakı fərq daha da dərinləşir...

P.İSMAYILOV

Avrasiyada əməkdaşlıq perspektivlərinə böyük inam




Bu günlərdə Brüsseldə Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın, genişlənmə üzrə komissar Marta Kosun və beynəlxalq tərəfdaşlıq üzrə avrokomissar Yozef Sikelanın birgə sədrliyi ilə regionlararası təhlükəsizlik və əlaqəlilik məsələləri üzrə ikinci nazirlər görüşü keçirilib. Görüşdə Aİ-yə üzv dövlətlərin, eləcə də Azərbaycan, Ermənistan, Moldova, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkiyə, Türkmənistan, Ukrayna və Özbəkistanın xarici işlər nazirləri və yüksək vəzifəli nümayəndələri iştirak ediblər.

Brüsseldə aparılan müzakirələrdə Avropa İttifaqı ilə Mərkəzi Asiya, Qara dəniz regionu, Cənubi Qafqaz arasında dialoqun bundan sonra da davam etdirilməsinə böyük istək və ümid ifadə olunub. "Bu artıq ikinci belə görüş idi. Birincisi ötən ilin oktyabrında baş tutmuşdu və mən ümid edirəm ki, biz bu formatı davam etdirəcəyik", - deyə Avropa Xarici Fəaliyyət Xidmətinin (EEAS) nümayəndəsi görüşdən sonra jurnalistlərə bildirib.

Bütün tərəflər üçün xüsusi əhəmiyyət daşıyan Transxəzər marşrutu

Aİ rəsmisinin sözlərinə görə, indiki geosiyasi vəziyyətdə Transxəzər və Transqafqaz nəqliyyat dəhlizləri bütün iştirakçı tərəflər üçün xüsusi əhəmiyyət kəsb edir. Brüsseldə Transxəzər marşrutuna növbəti dəfə diqqət çəkilməsi təsadüfi deyil. Hazırda Yaxın Şərqdə İran ətrafında vəziyyətin gərgin olaraq qalması, gözlənilən yeni və daha dəhşətli müharibə riski, Hörmüz boğazının bağlanması Avropanın təzhizat zəncirində ciddi qırılmalar yaradıb. Region dövlətləri enerji məhsullarını sərbəst şəkildə dünya bazarlarına çıxara bilmirlər. Bundan qlobal iqtisadiyyat, o cümlədən də Avropa ciddi şəkildə təsirlənir. Enerji təhlükəsizliyinin risk altına düşməsi özünü qiymətlərin artmasında, inflyasiyanın sürətlənməsində göstərir.



Avropanın təchizatına digər bir təhlükə isə Rusiya-Ukrayna müharibəsindən gəlir. Şərqi Avropada müharibə artıq beş ildir ki, uzanır və hələ də sonu görünmür. Uzanan müharibə regionda nəqliyyat və ticarət əlaqələri üçün də təhlükə yaradır. Qara dənizdə hətta ərzaq daşıyan gəmilər də hədəfə çevrilir.

Beləliklə, hazırda Avropa məkanında hökumətlər sözün əsl mənasında ciddi sınaq qarşısındadırlar. Avropanın həmrəylik dəhlizləri Ukrayna taxılını bazarlara çatdırmağa kömək etsə də, daşınan həcmlər azdır və tələbat tam şəkildə ödənilmir. Kaya Kallas bildirib ki, Avropa İttifaqı Qara dəniz regionunda Dəniz Təhlükəsizliyi Mərkəzinin (Black Sea Maritime Security Hub) yaradılmasına 50 milyon avro investisiya edir. Onun vəzifəsi ölkələr arasında məlumat mübadiləsini sürətləndirmək və gəmiçiliyə qarşı təhdidləri daha operativ şəkildə aşkar etmək olacaq.

Artan bu kimi geosiyasi gərginliklər fonunda Orta Dəhliz - Transxəzər marşrutu ən optimal bağlantı kimi diqqət mərkəzinə gəlir ki, burada da Azərbaycan bağlantıların mərkəzində yerləşən əsas dövlət qismində çıxış edir. Avropa məkanında da qəbul edilir ki, Azərbaycanın üstünlüyü yalnız coğrafiya ilə bağlı deyil. Ölkəmiz həmçinin geniş nəqliyyat-logistika imkanları təqdim etməklə diqqət mərkəzinə gəlir. Prezident İlham Əliyev ötən dövrdə ölkəmizin əlverişli coğrafi mövqeyini nəzərə almaqla strateji baxış nümayiş etdirərək qeyd olunan sahənin inkişafına həssas yamaşma sərgiləyib. Onun qətiyyətli siyasi iradəsi ilə ölkə boyunca böyük həcmlərdə investisiya qoyuluşu hesabına çoxsaylı nəqliyyat-logistika layihələri uğurla icra olunub və respublika ərazisindən keçən bütün marşrutlar üzrə tranzit daşımaların optimal vaxt rejimində səmərəli şəkildə həyata keçirilməsinə geniş imkanlar yaradılıb. Tam qətiyyətlə deyə bilərik ki, hazırda Azərbaycan Avrasiyanın əvəzolunmaz nəqliyyat-logistika mərkəzinə çevrilib ki, bu da respublikamızın regional və qlobal miqyasda önəmini artıran çox mühüm amillərdən biri qismində çıxış edir.

Azərbaycanın Avropa üçün önəmini artıran digər bir mühüm faktor isə ölkəmizlə Mərkəzi Asiyanın artıq vahid iqtisadi və siyasi məkan kimi çıxış etməsidir. Mərkəzi Asiya ölkələri resurslarla zəngindir. Aİ bu resurslara çıxış əldə etmək və onlardan bəhrələnmək niyyətindədir. Burada Azərbaycan yenə də mərkəzi aktor qismində çıxış edir. Ölkəmiz həm onilliklər boyunca yaratdığı nəqliyyat-logistika infrastrukturu ilə, həm də genişlənən siyasi və iqtisadi əlaqələri ilə Mərkəzi Asiya regionu ilə Aİ arasında etibarlı körpülər qurulmasında əvəzsiz rol oynaya bilər.

Enerji dialoqunun yeni mərhələsi

Brüssel görüşünün iştirakçıları həmçinin energetika sahəsində əməkdaşlığın dərinləşdirilməsinə sadiq olduqlarını təsdiq ediblər. Onlar həmçinin vurğulayıblar ki, ümumi təhlükəsizlik çağırışlarına birgə reaksiya və regionlararası əlaqəliliyin gücləndirilməsi sülhün, sabitliyin, dayanıqlığın və davamlı iqtisadi artımın təmin edilməsi üçün həlledici əhəmiyyətə malikdir.

Qeyd etmək yerinə düşər ki, energetika sektoru Azərbaycan Aİ əməkdaşlığının prioritet istiqamətini təşkil edir. Zəngin resurslara malik Azərbaycan geosiyasi gərginliklərin artdığı bir şəraitdə də özünün ədalətli enerji siyasətinə sadiq qalır və bütün öhdəliklərinə yüksək səviyyədə əməl edir. Ölkəmizin iştirakı ilə qoca qitənin yeni enerji xəritəsi formalaşır. 2022-ci ildə Azərbaycanla Aİ arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Hazırda respublikamız 16 ölkəyə, o cümlədən Avropa İttifaqının 10 üzv dövlətinə qaz ixrac edir və bu coğrafiya genişlənməkdədir. Azərbaycan Avropaya ixrac həcmlərini artırmaq imkanlarına malikdir. Ancaq Prezident İlham Əliyevin Dublin sammiti çərçivəsində keçirdiyi görüşlərdə də bildirdiyi kimi, mövcud xətlər tam şəkildə doludur. Buna görə də Xəzər sahillərindən Avropa məkanına mavi yanacağın ixrac həcmlərinin artırılması zərurəti Cənub Qaz Dəhlizinin genişləndirilməsi məsələsini gündəmə gətirib. Yaxşı haldır ki, Avropa Komissiyası səviyyəsində bununla bağlı razılıq əldə olunub. Cənub Qaz Dəhlizinin ötürücülük imkanlarının artırılması eyni zamanda Mərkəzi Asiya ölkələrinin enerji resurslarının Avropaya ötürülməsi baxımından son dərəcə zəruridir.

Azərbaycan və Mərkəzi Asiya regionu ilə Aİ arasında enerji dialoqunun yeni səhifəsi isə yaşıl enerji gündəliyi ilə bağlıdır. Azərbaycan və Mərkəzi Asiya dövlətləri bərpaolunan enerji mənbələri ilə zəngindir. Avropanın isə indiki kritik dönəmdə bu ehtiyatlara böyük ehtiyacı var. Artıq bu sahədə də əməkdaşlığın təməli qoyulub. 2022-ci ildə Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında imzalanmış sazişə əsasən, "yaşıl enerji" dəhlizinin qurulması haqqında razılaşma əldə olunub. Ölkəmizdə istehsal olunan yaşıl enerji Qara dənizin dibi ilə çəkilən kabel xətti ilə Avropaya ötürüləcək. Xəzərin dibi ilə çəkilən yaşıl dəhliz isə Azərbaycanla Mərkəzi Asiyanı birləşdirir. Beləliklə, böyük coğrafiyanın - Azərbaycanın, Mərkəzi Asiyanın və Avropanın çoxvektorlu dialoqunun yeni bağlarla daha da möhkəmlənəcəyinə heç bir şübhə yoxdur.

Mübariz FEYİZLİ

Dünyanın taleyi dəyişəcəkmi?

ABŞ, Çin və Rusiya liderlərinin üçtərəfli görüşü nə vəd edir?

Çinin Şençjen şəhərində ABŞ Prezidenti Donald Tramp, Çin Xalq Respublikasının Sədri Si Cinpin və Rusiya Prezidenti Vladimir Putin arasında üçtərəfli görüşün keçirilməsi nəzərdə tutulur. Görüş Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatı olan APEC-in noyabrın 18-19-da keçiriləcək 33-cü zirvə toplantısı çərçivəsində baş tutmalıdır. Üçtərəfli görüş beynəlxalq siyasətdə böyük geosiyasi əhəmiyyət daşıya biləcək hadisə hesab olunur. Noyabrın 14-də Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov üçtərəfli görüşün keçirilməsi barədə razılıq əldə olunduğunu açıqlayıb. Noyabrın 16-da isə Çin Xarici İşlər Nazirliyi Si Cinpinin görüşdə iştirakını təsdiqləyib.

Ukrayna mövzusu müzakirə ediləcək

ABŞ administrasiyasının yüksəkvəzifəli rəsmilərinin ilkin olaraq jurnalistlərə verdikləri məlumata görə, ilk dəfə keçiriləcək üçtərəfli görüşünün əsas mövzusu nüvə silahlarının ləğvi olacaq. Tərəflərin İran məsələsini də müzakirə edəcəyi istisna edilmir. Rəsmilər tərəfindən Donald Trampın görüş zamanı Rusiyanın Ukraynaya qarşı müharibəsini müzakirə etmək niyyətində olmadığı bildirilmişdi. Lakin Tramp özü bu açıqlamanı təkzib edib. Ağ Ev lideri Asiya səfərinə yola düşməzdən əvvəl jurnalistlərə müsahibəsində Çin lideri Si Cinpin və Rusiya Prezidenti Vladimir Putinlə keçiriləcək üçtərəfli görüşdə Ukraynadakı müharibəni müzakirə etməyi planlaşdırdığını söyləyib. "Biz mənim sevimli mövzum olan Ukrayna haqqında danışacağıq. Ukrayna uduzur, Rusiya isə ay ərzində 25 min əsgər itirir. Buna görə də bu məsələni müzakirə edəcəyik", - deyə Tramp qeyd edib.

Çinin Xarici İşlər Nazirliyinin sözçüsü Mao Nin isə media brifinqində bildirib ki, Çin, ABŞ və Rusiyanın dövlət başçıları üçtərəfli görüşdə dünyada sülhün qorunması və böyük dövlətlər arasındakı münasibətlərdə strateji sabitliyin təmin edilməsi məsələləri ətrafında ətraflı fikir mübadiləsi aparacaqlar. Çin, ABŞ və Rusiyanın BMT-nin təsisçi üzvləri və qurumun Təhlükəsizlik Şurasının daimi üzvləri olduğunu xatırladan XİN rəsmisi vurğulayıb ki, bu 3 ölkə dünya antifaşist müharibəsində qələbə qazanmaq üçün çiyin-çiyinə vuruşub. Mao Nin deyib ki, mövcud şəraitdə hər 3 ölkə qlobal çağırışların həlli, həmçinin dünyada sülhün və sabitliyin təşviqi istiqamətində birgə fəaliyyət göstərmək üçün mühüm məsuliyyət daşıyırlar. Onun sözlərinə görə, əlaqələrin gücləndirilməsi, fikir ayrılıqlarının idarə olunması və sabit münasibətlərin qorunub saxlanılması hər üç ölkənin maraqlarına uyğundur: "Bu, həm də beynəlxalq ictimaiyyətin gözləntisidir və qlobal sabitliyə, eləcə də dialoq və əməkdaşlığa töhfə verir".

"Rusiya və Çin çoxqütblü dünya nizamının tərəfdarıdır"

Üçtərəfli görüşün noyabrın 19-da keçirilməsi nəzərdə tutulsa da, Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə açıqlamasında liderlərin iş qrafikinin olduqca gərgin olduğunu söyləyib: "Həm Vladimir Putinin, həm də Donald Trampın digər mühüm ikitərəfli görüşləri nəzərdə tutulub. Buna görə də danışıqlar üçün münasib vaxtın müəyyənləşdirilməsi zəruridir". D.Peskov, həmçinin Vladimir Putin, Donald Tramp və Si Cinpin arasında keçiriləcək üçtərəfli görüşün əsas mövzularının artıq razılaşdırıldığını bildirib. Bununla belə, bəzi məsələlərin birbaşa danışıqlar zamanı gündəmə gətirilə biləcəyini istisna etməyib.

Üç ölkənin liderlərinin dünyanın gələcək taleyini müəyyənləşdirmək üçün bir araya gələcəkləri barədə fikirlərə münasibət bildirən Kremlin sözçüsü vurğulayıb ki, Rusiya və Çin çoxqütblü dünya nizamının tərəfdarıdır və digər dövlətlərin taleyinə müdaxilənin əleyhinədir: "Biz istəmirik ki, kimsə bizim taleyimizi həll etsin və heç vaxt başqalarının taleyini müəyyənləşdirmək iddiasında da olmayacağıq".



Ümumiyyətlə, bu görüşdən nə gözlənilir? Məsələ ilə bağlı qəzetimizə açıqlama verən politoloq Aytən Qurbanova bildirib ki, noyabrın 19-da Çinin Şençjen şəhərində ABŞ Prezidenti Donald Tramp, Çin Sədri Si Cinpin və Rusiya Prezidenti Vladimir Putin arasında keçiriləcək üçtərəfli görüş beynəlxalq münasibətlər sistemində son illərin diqqətçəkən diplomatik hadisələrindən biri kimi qiymətləndirilə bilər. Görüşün APEC sammiti çərçivəsində keçirilməsi isə onun əhəmiyyətini daha da artırır. Çin tərəfi danışıqların qlobal sülhün qorunması və böyük dövlətlər arasında strateji sabitliyin təmin edilməsi məsələlərini əhatə edəcəyini açıqlayıb.

Politoloq ilk növbədə onu qeyd edib ki, bu görüşə yalnız üç dövlət arasında diplomatik təmas kimi yanaşmaq düzgün olmaz: "Çünki ABŞ, Çin və Rusiya beynəlxalq təhlükəsizlik sisteminin, qlobal iqtisadi münasibətlərin və geosiyasi proseslərin istiqamətinə təsir göstərən əsas güc mərkəzləridir. Onların münasibətlərində baş verən dəyişikliklər Avropadan Asiya-Sakit okean regionunadək geniş coğrafiyada siyasi və iqtisadi nəticələr yaradır. Məhz bu nöqteyi-nəzərdən yanaşdıqda, Şençjen görüşünün mövcud rəqabət şəraitində böyük dövlətlərin qarşılıqlı münasibətləri hansı çərçivədə tənzimləmək niyyətində olduqlarını müəyyənləşdirmək üçün əhəmiyyəti kifayət qədər yüksək qiymətləndirilir. Görüşün əsas müzakirə istiqamətlərindən birinin nüvə təhlükəsizliyi və strateji silahlanmaya nəzarət məsələsi olacağı gözlənilir. Xüsusilə də, ABŞ və Rusiya arasında nüvə silahlarının məhdudlaşdırılmasını nəzərdə tutan yeni START müqaviləsinin 2026-cı ilin fevralında başa çatması beynəlxalq təhlükəsizlik üçün yeni çağırışlar yaradıb. Digər tərəfdən isə ABŞ Çinin də gələcək silahlanmaya nəzarət mexanizmlərinə cəlb olunmasında maraqlıdır. Lakin burada tərəflərin mövqeləri üst-üstə düşmür. ABŞ və Rusiyanın nüvə arsenalı Çinin arsenalından xeyli böyükdür. Ona görə də, Pekin bərabərhüquqlu məhdudiyyətlərə qoşulmaq üçün əvvəlcə mövcud nüvə balansının nəzərə alınmasını vacib saya bilər. Deməli, görüşdə bu məsələnin müzakirəsi mümkün olsa da, qısa müddətdə konkret razılaşmanın əldə olunması real görünmür".

Aytən Qurbanova: Üç dövlətin İranla bağlı maraqlarının fərqli olması vahid mövqenin formalaşmasını çətinləşdirir

A.Qurbanovanın fikrincə, digər mühüm istiqamət Orta Şərqdəki hərbi-siyasi vəziyyət, xüsusilə İran ətrafında yaranmış gərginlikdir. Trampın bu məsələyə xüsusi diqqət ayırmaq niyyətində olması təsadüfi deyil. İranın regional mövqeyi, Hörmüz boğazının təhlükəsizliyi, enerji təchizatının fasiləsizliyi və neft bazarlarında sabitlik ABŞ-nin iqtisadi və təhlükəsizlik maraqları ilə birbaşa bağlıdır. Çin isə İranın mühüm iqtisadi tərəfdaşlarından biri, Rusiya da Tehranla siyasi və hərbi əməkdaşlıq münasibətləri olan dövlətdir. Belə olan halda Vaşinqtonun Pekin və Moskva ilə dialoqu İran ətrafında eskalasiyanın qarşısının alınması və regional təhlükəsizlik məsələlərində müəyyən anlaşmanın əldə edilməsi baxımından əhəmiyyət daşıya bilər. Həmçinin üç dövlətin İranla bağlı maraqlarının fərqli olması vahid mövqenin formalaşmasını çətinləşdirir. Rusiya-Ukrayna müharibəsi də görüşün siyasi kontekstində xüsusi yer tutur. ABŞ rəsmiləri əvvəlcə Ukrayna məsələsinin üçtərəfli danışıqların əsas gündəliyində nəzərdə tutulmadığını bildirsələr də, Tramp bu mövzunu müzakirə etmək niyyətini ifadə edib. Burada diqqət çəkən məqam Moskvanın müharibənin dayandırılması prosesində Vaşinqtonla münasibətlərini yeni mərhələyə keçirmək, Pekinin isə bu prosesdə öz diplomatik mövqeyini qorumaq istəyidir. Çin münaqişənin həllində siyasi dialoqun tərəfdarı olduğunu bəyan etsə də, Ukrayna məsələsinin Avropa təhlükəsizliyi ilə birbaşa bağlı olduğunu və Avropa ölkələrinin də danışıqlarda iştirakının vacibliyini vurğulayır.

"Beləliklə, Şençjen görüşündə Ukrayna məsələsinin hansı səviyyədə müzakirə ediləcəyi və mümkün diplomatik təşəbbüslərin hansı çərçivədə formalaşacağı diqqət mərkəzində olacaq. Görüşün digər mühüm tərəfi isə ABŞ-Çin münasibətlərində iqtisadi və texnoloji rəqabətin gələcək istiqamətidir. Ticarət tarifləri, strateji xammal və nadir torpaq elementlərinin təchizatı, süni intellekt və yüksək texnologiyalar sahəsində üstünlük uğrunda mübarizə iki ölkə münasibətlərində əsas problemli məsələlərdir. Çin qlobal istehsal və təchizat zəncirlərindəki mövqeyini qorumağa, ABŞ isə strateji texnologiyalar və kritik resurslar sahəsində Çindən asılılığı azaltmağa çalışır. Bu ziddiyyətlər yalnız ikitərəfli ticarətə deyil, bütövlükdə dünya iqtisadiyyatına təsir göstərir. APEC sammitinin əsas gündəliyində də azad ticarət, rəqəmsal iqtisadiyyat, innovasiya və süni intellekt məsələlərinin yer alması Şençjen görüşünün iqtisadi əhəmiyyətini artırır" - deyən politoloq əlavə edib ki, görüşün geosiyasi əhəmiyyətini müəyyənləşdirən əsas məqam üç dövlətin bir-birinə münasibətdə strateji prioritetləridir. ABŞ qlobal liderliyini və beynəlxalq proseslərə təsir imkanlarını qorumağa, Çin iqtisadi və siyasi gücünü beynəlxalq sistemdə daha geniş mövqeyə çevirməyə, Rusiya isə Qərblə münasibətlərdəki mövcud məhdudiyyətləri azaltmağa və beynəlxalq siyasətdə təsir imkanlarını saxlamağa çalışır. Bu maraqların müəyyən məsələlərdə uzlaşması mümkündür, lakin onların strateji rəqabəti aradan qaldıracağını düşünmək doğru olmaz.

Bu format beynəlxalq münasibətlər sistemində mühüm siyasi mesajdır

Eyni zamanda, həmsöhbətimiz hesab edir ki, belə bir formatın özü beynəlxalq münasibətlər sistemində mühüm siyasi mesaj xarakteri daşıyır: "Üç böyük dövlətin qlobal təhlükəsizlik məsələlərini birbaşa müzakirə etməsi onların beynəlxalq proseslərə təsir imkanlarını nümayiş etdirir. Nəticə etibarilə, Şençjen görüşündən dərhal tarixi razılaşmalar gözləmək üçün hələlik əsas yoxdur. Tərəflərin fərqli strateji maraqları, nüvə silahlarına nəzarət, İran ətrafındakı vəziyyət və beynəlxalq iqtisadi rəqabət kimi məsələlər ortaq qərarların əldə olunmasını çətinləşdirir. Bununla yanaşı, üç nüvə dövlətinin liderləri arasında birbaşa dialoqun qurulması belə beynəlxalq təhlükəsizlik baxımından mühüm hadisə hesab oluna bilər. Görüşün əsas nəticəsi isə yeni dünya nizamının son mərhələsinin müəyyənləşdirilməsi deyil, mövcud rəqabətin hansı sərhədlər daxilində idarə olunacağının və böyük dövlətlərin qlobal sabitlik naminə nə dərəcədə əməkdaşlığa hazır olduqlarının üzə çıxması ola bilər".

N.BAYRAMLI

Barrikadaların yaddaşı:
Fransa 1968-in mayından nə öyrəndi?

Bir vaxt tələbələrin qaldırdığı etirazlar milyonlarla insanı küçələrə çıxardı, Şarl de Qoll hakimiyyətini sarsıtdı. Bu gün Fransa yenidən etiraz dalğasıyla üz-üzədir. Tarix təkrarlanır, yoxsa yeni siyasi böhranın astanasındadır?

Parisin küçələrində yenidən etiraz səsləri eşidilir. Tələbələr universitetlərin və məktəblərin qarşısında toplaşır, həmkarlar ittifaqları əməkhaqlarının artırılmasını tələb edir, ictimai xidmətlərin zəifləməsinə qarşı narazılıqlar genişlənir. Küçələrdə qaldırılan plakatlar, barrikadalar, polis müdaxiləsi və hökumətə ünvanlanan sərt çağırışlar istər-istəməz bir tarixi - 1968-ci ilin mayını xatırladır.

Həmin il Fransada baş verən hadisələr yalnız tələbə etirazı və ya əmək mübarizəsi deyildi. Bu, bütöv bir cəmiyyətin mövcud siyasi, iqtisadi və mədəni qaydalara qarşı üsyanı idi. Bir neçə həftə ərzində universitetlər, zavodlar, dövlət müəssisələri və nəqliyyat sistemi etirazların təsiri altına düşdü, milyonlarla insan işini dayandırdı. Prezident Şarl de Qollun hakimiyyəti ciddi təhlükəylə üzləşdi. Lakin hadisələrin ən maraqlı tərəfi başqa idi: etirazçılar hakimiyyəti dəyişdirə bilmədilərsə də, Fransanın gələcək inkişaf istiqamətinə təsir göstərdilər. Bu gün isə yeni nəsil eyni sualları yenidən gündəmə gətirir: dövlət gənclərin səsini eşidirmi? İqtisadi inkişaf sosial ədaləti təmin edirmi? Siyasi institutlar cəmiyyətin dəyişən tələblərinə uyğunlaşa bilirmi?

De Qollun Fransası: iqtisadi yüksəlişin arxasında gizlənən narazılıq

1968-ci ilin hadisələrini anlamaq üçün ilk növbədə həmin dövrün Fransasına nəzər salmaq lazımdır. İkinci Dünya müharibəsindən sonra Fransa ağır dağıntılardan çıxaraq sürətli iqtisadi inkişaf mərhələsinə daxil olmuşdu. 1945-1975-ci illər Fransanın tarixində çox vaxt Trente Glorieuses - "Otuz şanlı il" adlandırılır. Sənaye inkişaf edir, şəhərlər böyüyür, istehlak imkanları genişlənir, universitetlərdə təhsil alanların sayı sürətlə artırdı. İlk baxışdan ölkə sabit və inkişaf edən dövlət təsiri bağışlayırdı. Lakin iqtisadi tərəqqi cəmiyyətin bütün təbəqələrinin eyni dərəcədə razı olması demək deyildi. Universitetlərdə tələbələrin sayı artdığı halda təhsil sistemi köhnə idarəçilik prinsipləriylə fəaliyyət göstərirdi. Professorların nüfuzu və inzibati nəzarət güclüydü, tələbələrin qərarların qəbulunda iştirakı isə məhdud qalırdı. Gənclər yalnız daha yaxşı təhsil yox, daha azad, bərabər və açıq cəmiyyət tələb edirdilər. Bu proseslərə ölkənin siyasi vəziyyəti də təsir göstərirdi. Şarl de Qoll 1958-ci ildə Əlcəzair böhranı fonunda hakimiyyətə qayıtmış, Beşinci Respublikanın əsaslarını formalaşdırmış və 1959-cu ildən prezident vəzifəsini tutmuşdu. Onun idarəçilik modeli güclü prezident institutuna, dövlətin mərkəzləşdirilmiş idarə olunmasına və milli müstəqillik ideyasına əsaslanırdı. De Qoll Fransanın beynəlxalq nüfuzunu bərpa etməyə, ölkənin müstəqil xarici siyasət xəttini qorumağa və dövlət institutlarını gücləndirməyə çalışırdı. Ancaq bu modelin digər tərəfi də vardı: cəmiyyətin bir hissəsi siyasi qərarların yuxarıdan qəbul edilməsindən, gənclərin və fəhlələrin mövqeyinin kifayət qədər nəzərə alınmamasından narazıydı. Məhz bu şəraitdə 1968-ci ilin may hadisələri üçün zəmin formalaşdı.



Tələbələrdən fəhlələrə: etirazlar Fransanı iflic edir

Mayın 13-də tələbələrə həmkarlar ittifaqları və fəhlələr dəstək verdilər. Lakin hadisələrin miqyası bununla məhdudlaşmadı. Ertəsi gündən etibarən zavodlarda işçilər müəssisələri tərk etməyə və istehsalı dayandırmağa başladılar. Mayın 14-də Nant şəhərindəki Sud-Aviation zavodunun işçiləri müəssisəni tutdular. Sonrakı günlərdə Renault zavodlarında və digər sənaye müəssisələrində tətillər genişləndi. Nəqliyyat, poçt, dövlət xidmətləri və müxtəlif iqtisadi sahələr də etirazların təsirinə düşdü. Tarixi mənbələrdə tətilçilərin sayı ilə bağlı fərqli rəqəmlər göstərilir. Larousse ensiklopediyası təxminən 7 milyon, Şarl de Qoll Fondunun xronologiyası isə mayın 20-də 10 milyondan çox tətilçi- dən bəhs edir. Bu fərq hesablanma metodları və tətilin müxtəlif mərhələlərində iştirakçıların sayının dəyişməsiylə bağlıdır. Hər iki göstərici hadisələrin miqyasını aydın nümayiş etdirir. Maraqlıdır ki, tələbələrin irəli sürdüyü tələblərlə fəhlələrin gözləntiləri tamamilə eyni deyildi. Tələbələr universitetlərin demokratikləşdirilməsini, ənənəvi hakimiyyət münasibətlərinin dəyişməsini və daha geniş azadlıqlar tələb edirdilər. Fəhlələr isə əməkhaqlarının artırılmasını, iş şəraitinin yaxşılaşdırılmasını, həmkarlar ittifaqlarının hüquqlarının genişləndirilməsini və müəssisələrdə daha çox söz sahibi olmaq istəyirdilər.

Bir universitetin bağlanması bütün ölkəni necə ayağa qaldırdı?

Hadisələrin mərkəzində Parisin yaxınlığında yerləşən Nanter universiteti dayanırdı. 1963-cü ildə yaradılmış bu ali məktəbdə tələbə narazılığı getdikcə artırdı. Təhsil sisteminin sərtliyi, universitetdəki inzibati münasibətlər, tələbələrin sosial və şəxsi azadlıqlarıyla bağlı məhdudiyyətlər etirazların əsas səbəbləriydi. 1968-ci il mart ayının 22-də Daniel Kon-Benditin (Daniel Cohn-Bendit) rəhbərlik etdiyi tələbələr universitetin inzibati binasını tutdular. Beləliklə, sonradan "22 Mart Hərəkatı" kimi tanınan təşkilatlanmış tələbə etirazı meydana çıxdı. Mayın 2-də Nanter universitetində dərslər dayandırıldı. Ertəsi gün etirazlar Parisin mərkəzinə, Sorbonna Universitetinə yayıldı. Polis tələbələrin toplantısına müdaxilə etdi, çoxlu saxlanan oldu. Bu müdaxilə tələbə narazılığını daha da gücləndirdi. Mayın 10-dan 11-nə keçən gecə Parisin Latın məhəlləsində barrikadalar quruldu. Daş döşəmələr söküldü, avtomobillər yandırıldı, polis gözyaşardıcı qazdan və güc vasitələrindən istifadə etdi. Küçələrdə baş verən qarşıdurmalar radio vasitəsilə ölkənin hər yerində izlənirdi. Bu hadisələr Fransa ictimaiyyətində ciddi rezonans doğurdu.

Grenelle danışıqları: hökumət güzəştə getdi, amma etirazçılar razılaşmadı

Hökumət böhranın dərinləşdiyini görəndən sonra danışıqlara başlamağa məcbur oldu. Baş nazir Jorj Pompidunun rəhbərliyi ilə hökumət, həmkarlar ittifaqları və işəgötürənlər arasında danışıqlar aparıldı. Mayın 27-də Grenelle razılaşması kimi tanınan protokol imzalandı. Sənəddə minimum əməkhaqqının 35 faiz artırılması, ümumi əməkhaqlarının isə təxminən 10 faiz yüksəldilməsi nəzərdə tutulurdu. Əmək münasibətlərinin və həmkarlar ittifaqlarının hüquqlarının yaxşılaşdırılması məsələləri də müzakirə olunurdu. Ancaq hökumət güzəştlərinə baxmayaraq bir sıra zavodlarda işçilər razılaşmanı qəbul etməyib tətili dayandırmadılar. Onlar üçün məsələ artıq yalnız maaş artımıyla məhdudlaşmırdı. Müəssisələrdə qərarların qəbuluna qatılmaq, rəhbərliyin səlahiyyətlərini məhdudlaşdırmaq və əmək münasibətlərini dəyişdirmək də əsas tələblər sırasındaydı. Bu məqam 1968-ci il hadisələrinin ən mühüm siyasi dərslərindən biridir: iqtisadi güzəştlər sosial narazılığın bütün səbəblərini aradan qaldırmır. İnsanlar bəzən yalnız daha yüksək əməkhaqqı yox, qərarların qəbulunda iştirak və həyatlarına təsir edən proseslər üzərində söz sahibi olmaq istəyirlər.

29 may sirri: Şarl de Qoll niyə yoxa çıxmışdı?

1968-ci ilin may böhranının ən dramatik epizodlarından biri ayın 29-da baş verdi. Prezident Şarl de Qoll Parisdən ayrılaraq bir müddət ictimaiyyət qarşısında görünmədi. Onun harada olduğu barədə qeyri-müəyyənlik siyasi dairələrdə və cəmiyyətdə ciddi narahatlıq yaratdı. De Qoll həmin gün Baden-Badenə gedərək Fransanın Almaniyadakı hərbi qüvvələrinin komandanı general Jak Massü ilə görüşdü. Bu səfər sonradan Fransa siyasi tarixində böhranın ən müəmmalı məqamlarından biri kimi yadda qaldı. Prezidentin ölkəni tərk etməsi hakimiyyətin vəziyyətinə dair sualları artırmışdı. Hökumət küçələrdə baş verən hadisələrə nəzarəti tam bərpa edə bilmirdi, tətillər səngimirdi, siyasi müxalifət isə alternativ hakimiyyət imkanlarını müzakirəyə çıxarmışdı.

Lakin mayın 30-da de Qoll radio ilə xalqa müraciət etdi. O, Milli Assambleyanı buraxdığını və növbədənkənar parlament seçkilərinin keçiriləcəyini elan etdi, eyni zamanda tərəfdarlarını küçələrə çıxmağa çağırdı. Həmin gün Şanzelize prospektində de Qollu dəstəkləyən böyük mitinq keçirildi. Bu, böhranın gedişində mühüm dönüş nöqtəsi oldu. Etiraz hərəkatı geniş olsa da, onun daxilində vahid siyasi rəhbərlik və alternativ hakimiyyət proqramı formalaşmamışdı. Müxalif qüvvələr arasında fikir ayrılıqları da vardı. İyun ayında keçirilən parlament seçkilərində de Qoll tərəfdarlarının mövqeyi gücləndi və prezidentin siyasi hakimiyyəti qorundu. Beləliklə, küçə etirazları hakimiyyət dəyişikliyinə gətirib çıxarmadı. Ancaq bu, de Qollun siyasi böhrandan tam qalib çıxması demək deyildi. Onun nüfuzu ciddi sarsılmışdı. 1969-cu ilin 27 aprelində keçirilən referendumda seçicilərin 52,41 faizi prezidentin təklif etdiyi islahatlara qarşı çıxdı. De Qoll əvvəlcədən verdiyi vədə uyğun olaraq aprelin 28-də istefaya getdi. Fransa Senatının arxiv materialları bu nəticəni təsdiqləyir. Beləliklə, 1968-ci ilin mayında hakimiyyətini qoruyan prezident təxminən bir il sonra referendumun nəticələri fonunda vəzifəsini tərk etməli oldu.

1968-ci il Fransanı necə dəyişdi? Küçə etirazından mədəni inqilaba

May hadisələrinin əhəmiyyəti yalnız siyasi nəticələrlə ölçülmür. Əsl dəyişiklik Fransa cəmiyyətinin gündəlik həyatında, ailə münasibətlərində, təhsil sistemində, mədəniyyətdə və ictimai düşüncədə baş verdi. Etirazların məşhur şüarlarından biri beləydi: "Qadağan etmək qadağandır!" Bu ifadə yalnız universitetlərdəki məhdudiyyətlərə qarşı yönəlməmişdi, ümumilikdə avtoritar münasibətlərə, köhnə sosial normalara və fərdin həyatına müdaxiləyə etirazın simvoluna çevrilmişdi.

1968-ci il hadisələri gənclərin cəmiyyətdəki rolunu dəyişdi. Tələbələr artıq yalnız təhsil alan sosial qrup kimi deyil, ictimai-siyasi proseslərə təsir göstərən müstəqil qüvvə kimi çıxış etməyə başladılar. Qadın hüquqları, ailə münasibətləri, şəxsi azadlıq, cinsi bərabərlik və təhsil sisteminin demokratikləşdirilməsi kimi məsələlər daha geniş müzakirə olunmağa başladı. 1968-ci il hadisələrindən sonrakı illərdə feminist hərəkatın güclənməsi, 1974-cü ildə kontrasepsiyanın əlçatanlığını genişləndirən Veil qanunu və 1975-ci ildə abortun qanuniləşdirilməsi Fransa cəmiyyətindəki daha geniş transformasiyanın mühüm mərhələləri oldu. Bu dəyişiklikləri yalnız May hadisələrinin birbaşa nəticəsi kimi təqdim etmək düzgün olmaz, lakin həmin etirazların yaratdığı ictimai mühit onların inkişafına təkan verən amillərdən biriydi. Təhsil sahəsində də mühüm islahatlar həyata keçirildi, 1968-ci ilin noyabrında qəbul edilən Faure qanunu universitetlərin idarə olunmasında yeni prinsiplər müəyyənləşdirdi. Universitetlərin muxtariyyəti, idarəetmədə müxtəlif qrupların iştirakı və tədris sisteminin yenilənməsi istiqamətində dəyişikliklər başlandı.

2026-cı il: fransız xalqı yenidən küçələrdə

1968-ci ildən 58 il sonra Fransa bənzər mənzərəylə üzləşib. 2026-cı ilin payızında ölkədə yeni etiraz dalğası baş qaldırıb. ABŞ-ın Xarici Əlaqələr Şurasının (Council on Foreign Relations - CFR) 28 oktyabr 2026-cı il tarixli təhlilinə görə, etirazların başlanğıc nöqtəsi sentyabrın 17-də Paris yaxınlığındakı Kretey şəhərində yerləşən Antoine de Saint-Exupery liseyində müəllim çatışmazlığına qarşı keçirilən aksiya olub. Müəllimlərin etirazına şagirdlər və valideynlər də qoşulub, daha sonra narazılıq digər şəhərlərə yayılıb. Etirazların gündəliyi qısa müddətdə genişlənib. Məktəblərdə müəllim çatışmazlığı, siniflərin həddindən artıq dolu olması, təhsil infrastrukturunun zəifliyi və universitetlərə qəbul sistemi ilə bağlı narazılıqlara yaşayış xərcləri, əməkhaqları, pensiyalar, ictimai xidmətlər və sosial bərabərsizlik məsələləri də əlavə olunub. Noyabrın 5-də keçirilən ümummilli aksiyalar bu hərəkatın yeni mərhələyə adladığını göstərdi.

"Le Monde" qəzetinin müxbirləri Jean-Philippe Remy, Aline Leclerc, Bastien Bonnefous, Charlotte Bozonnet, Sylvie Lecherbonnier və Robin Richardotun 6 noyabr 2026-cı ildə dərc etdirdikləri məlumatlardan belə qənaətə gəlmək olur ki, keçirilən 193 aksiyada iştirakçıların sayı ilə bağlı fərqli mənbələrdə fərqli rəqəmlər göstərilib. Fransa Daxili İşlər Nazirliyi 575 min, Fransanın Ümumi Əmək Konfederasiyası (Confederation generale du travail - CGT) isə təxminən 1,6 milyon iştirakçı qeydə alındığını bildirib. Rəqəmlər arasındakı fərq təşkilatçıların və dövlət qurumlarının hesablamalarının eyni olmadığını göstərir. Etirazlarda tələbələr, müəllimlər, dövlət və özəl sektor işçiləri, fermerlər və "Sarı jiletlilər" hərəkatının tərəfdarları iştirak ediblər. Onların əsas tələbləri əməkhaqlarının artırılması, alıcılıq qabiliyyətinin qorunması, ictimai xidmətlərə daha çox vəsait ayrılması və sosial ədalətin təmin olunmasıdır.

"Associated Press"-in noyabrın 5-də yaydığı məlumata görə, həmin gün ölkə üzrə 70 min polis əməkdaşı təhlükəsizlik tədbirlərinə cəlb edilib, bəzi şəhərlərdə qarşıdurmalar baş verib. Baş nazir Sebastyan Lekornü (Sebastien Lecornu) isə həmkarlar ittifaqları və işəgötürənlərin iştirakıyla sosial konfrans keçirməyi qərara alıb. Beləliklə, Fransa yenidən mühüm siyasi sualla üz-üzədir: hökumət sosial narazılıqları dialoq yoluyla idarə edə biləcəkmi, yoxsa etirazlar daha geniş siyasi böhrana çevriləcək?

1968 və 2026: eyni barrikadalar, fərqli nəsillər


İlk baxışdan 1968-ci ilin may hadisələriylə 2026-cı ilin etirazları arasında ciddi oxşarlıqlar görünür. Hər iki halda gənclər etirazların önündə dayanır, sosial narazılıq müxtəlif təbəqələri bir araya gətirir, polis müdaxiləsi müzakirələri daha da kəskinləşdirir və hökumət cəmiyyətin tələblərinə cavab vermək zərurətiylə üzləşir. Lakin bu iki dövrü eyniləşdirmək düzgün olmaz. 1968-ci ildə Fransa iqtisadi yüksəliş dövrünü yaşayırdı. Əsas narazılıqlardan biri sürətlə böyüyən cəmiyyətin dəyişən gözləntiləriylə köhnə idarəçilik və sosial münasibətlər arasındakı uyğunsuzluq idi. Gənclər daha çox azadlıq, iştirak və ictimai münasibətlərin yenilənməsini tələb edirdilər. 2026-cı ildə isə etirazların mühüm səbəbləri yaşayış xərclərinin artması, əməkhaqlarının alıcılıq qabiliyyətinin zəifləməsi, təhsil sistemindəki çatışmazlıqlar, sosial təminat və gələcək məşğulluqla bağlı narahatlıqlardır. Bu dəfə etirazçılar yalnız mövcud qaydaların dəyişdirilməsini yox, gündəlik həyatın iqtisadi baxımdan daha dözümlü olmasını tələb edirlər. Təşkilatlanma üsulları da fərqlidir. 1968-ci ildə universitetlərin, teatrların və zavodların tutulması, ümumi tətil və kollektiv toplantılar hərəkatın əsas vasitələriydi. Müasir dövrdə isə sosial şəbəkələr etirazların yayılmasını sürətləndirir, müxtəlif qrupların əlaqə qurmasını asanlaşdırır. Bununla belə, rəqəmsal təşkilatlanma hər zaman vahid rəhbərlik və ümumi siyasi proqram formalaşdırmır.

Ən mühüm fərq isə miqyas və iqtisadi təsirdədir. 1968-ci ildə milyonlarla işçinin tətili ölkənin iqtisadi fəaliyyətini geniş miqyasda dayandırmışdı. 2026-cı ilin noyabr aksiyaları böyük iştirakla müşayiət olunsa da, onları 1968-ci ildəki ümummilli tətilin eynisi hesab etmək olmaz. Bununla belə 2026-cı ilin hadisələri xüsusi əhəmiyyət daşıyır: tələbə etirazlarının həmkarlar ittifaqları, fermerlər və müxtəlif sosial qruplarla birləşməsi Fransa cəmiyyətində narazılığın tək bir sahəylə məhdudlaşmadığını göstərir.

1968-ci ilin ruhu hələ də yaşayırmı?

1968-ci ilin may hadisələri Fransanın siyasi tarixində hakimiyyətin sarsıldığı, cəmiyyətin özünü yenidən kəşf etdiyi və ənənəvi münasibətlərin ciddi sorğulandığı bir dövr kimi yadda qaldı. Şarl de Qoll hakimiyyətdə duruş gətirdi, parlament seçkilərində tərəfdarları üstünlük qazandı, lakin prezidentin siyasi nüfuzu əvvəlki səviyyəyə qayıtmadı. Bir il sonra referendumun nəticələri onun istefasıyla sonuclandı. Bu hadisələrin əsas dərsi ondan ibarətdir ki, sosial narazılıq yalnız küçə etirazçılarının sayı ilə ölçülmür. Bəzən minlərlə tələbənin universitetdə başlatdığı aksiya milyonlarla insanın öz gələcəyi haqqında düşünməsinə səbəb olur. Bəzən hökumət siyasi böhrandan formal olaraq qalib çıxır, lakin cəmiyyətin dəyişən tələblərinə cavab vermək zərurətindən qaça bilmir.

2026-cı ilin noyabrında Fransada baş verənlər 1968-ci ilin təkrarı deyil. Ancaq həmin hadisələrin yaratdığı tarixi yaddaş bu gün də Fransa siyasətinə təsirsiz ötüşmür. Paris küçələrində yenidən səslənən etiraz çağırışları göstərir ki, sosial ədalət, gənclərin gələcəyi, dövlətin məsuliyyəti və vətəndaşların qərarvermədə iştirakı məsələləri hələ də həllini gözləyir. Bəlkə də 1968-ci ilin ən böyük mirası məhz budur: heç bir siyasi hakimiyyət cəmiyyətin dəyişən gözləntilərini sonsuza qədər görməzliyə vura bilməz. Barrikadalar dağıla, meydanlar boşala, hökumətlər dəyişə bilər, lakin cəmiyyətin verdiyi suallar cavabsız qalanda tarix yeni nəsillərin diliylə yenidən danışmağa başlayır.



Kəramət QƏNBƏROV
Beynəlxalq hüquq üzrə ekspert

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressİnformMMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN





Əsrlərin yaddaşında yaşayan gözəllik...

İslam incəsənətinin silinməz izləri

İncəsənət bəzən bir xalqın tarixini kitablar qədər dolğun danışır, bəzən isə daşlara həkk olunmuş naxışlarda, miniatürlərin incə cizgilərində, memarlıq abidələrinin əzəmətində bütöv bir sivilizasiyanın dünyagörüşünü yaşadır. İslam incəsənəti də məhz belə nadir mədəniyyət hadisələrindəndir. O, yalnız estetik zövqün ifadəsi deyil, həm də əsrlər boyu formalaşmış düşüncənin, mənəvi dəyərlərin, elmi axtarışların və müxtəlif xalqların ortaq yaradıcılıq təcrübəsinin bədii təcəssümüdür.

Hər il noyabrın 18-də qeyd olunan Beynəlxalq İslam İncəsənəti Günü bu zəngin irsə yenidən nəzər salmaq, onun bəşər mədəniyyətinə verdiyi töhfələri xatırlamaq və gələcək nəsillərə çatdırılmasının vacibliyini vurğulamaq baxımından xüsusi əhəmiyyət daşıyır. Bu gün İslam incəsənətinin yalnız dini məkanlarla məhdudlaşmadığını, dünya mədəniyyətinin inkişafında mühüm rol oynadığını bir daha nümayiş etdirir.

Bir dinin sərhədlərini aşan sənət dünyası

İslam incəsənəti dedikdə ilk növbədə məscidlərin möhtəşəm günbəzləri, zərif minarələr, mürəkkəb həndəsi naxışlar, xəttatlıq nümunələri və rəngarəng miniatürlər yada düşür. Lakin bu anlayış daha geniş məzmun daşıyır. O, İslam sivilizasiyasının yayıldığı müxtəlif coğrafiyalarda yaranan, fərqli xalqların ənənələri ilə zənginləşən çoxşaxəli yaradıcılıq dünyasını əhatə edir.

Ərəb, fars, türk, Azərbaycan, Mərkəzi Asiya, Şimali Afrika və digər mədəniyyətlərin təsiri ilə formalaşan bu sənət ənənəsi vahid estetik prinsiplərlə yanaşı, yerli xüsusiyyətləri də qoruyub saxlayıb. Məhz buna görə İslam incəsənətində həm ümumi bədii dil, həm də hər bölgənin özünəməxsus üslubu ilə qarşılaşırıq. Onun ən maraqlı cəhətlərindən biri gözəlliyi yalnız görünən formada deyil, məna və harmoniya daxilində axtarmasıdır. Təbiətdəki nizam, kainatın ahəngi, sonsuzluq və vəhdət ideyaları memarlıqdan dekorativ sənətə qədər müxtəlif istiqamətlərdə öz əksini tapıb.

Həndəsənin poetikası, naxışların gizli dili...

İslam incəsənətini digər bədii ənənələrdən fərqləndirən əsas xüsusiyyətlərdən biri həndəsi ornamentlərin geniş istifadəsidir. Bir-birinə keçən ulduzlar, çoxbucaqlılar, dairələr və mürəkkəb simmetrik kompozisiyalar ilk baxışda sadəcə dekorativ element təsiri bağışlasa da, onların arxasında dərin riyazi bilik və incə estetik düşüncə dayanır. Bu naxışlarda təkrarlanan elementlər sonsuzluq təsəvvürü yaradır. Kiçik bir həndəsi fiqurdan başlayaraq bütöv səthi əhatə edən kompozisiyalar qurulur. Beləliklə, sənətkar həm dəqiq hesablamalar aparır, həm də adi həndəsi formaları vizual poeziyaya çevirir.

Bitki motivləri, stilizə edilmiş yarpaqlar, çiçəklər və budaqlardan ibarət islimi ornamentləri də İslam dekorativ sənətinin seçilən nümunələrindəndir. Bu motivlər daş, ağac, keramika, metal və tekstil üzərində fərqli texnikalarla işlənərək sənət əsərinə çevrilir.

Xəttatlıq: hərflərin sənətə çevrildiyi məkan

İslam incəsənətinin ən təsirli istiqamətlərindən biri xəttatlıqdır. Ərəb qrafikası ilə yazılmış mətnlər əsrlər ərzində yalnız məlumat daşıyıcısı olmayıb, həm də yüksək bədii dəyərə malik kompozisiyalara çevrilib. “Qurani-Kərim” ayələrinin məscidlərin divarlarında, günbəzlərində və əlyazmalarda xüsusi ustalıqla işlənməsi bu sənətin inkişafına böyük təkan verib.



Memarlıqda daşlaşan gözəllik

İslam incəsənətinin ən möhtəşəm təzahürlərini memarlıqda görmək mümkündür. Məscidlər, mədrəsələr, saraylar, türbələr, karvansaralar və digər tikililər funksionallıqla estetik gözəlliyin vəhdətini nümayiş etdirir. Məkanın quruluşu, işıqdan istifadə, günbəzlərin və tağların forması, fasadların bəzədilməsi xüsusi bədii yanaşma tələb edir. Müxtəlif dövrlərdə inşa edilmiş İslam memarlığı nümunələri göstərir ki, sənətkarlar hətta ənənəvi tikinti prinsiplərini belə yaradıcı şəkildə inkişaf etdirə biliblər.

İspaniyadakı Əlhambra sarayı, Hindistandakı Tac-Mahal, Türkiyədəki Süleymaniyyə məscidi və Özbəkistandakı Registan kompleksi bu irsin müxtəlif coğrafiyalarda qazandığı zənginliyi nümayiş etdirən məşhur nümunələrdəndir. Hər biri öz dövrünün memarlıq düşüncəsini, sənətkarlıq imkanlarını və mədəni mühitini əks etdirir.

Azərbaycanın özünəməxsus imzası

İslam incəsənətindən danışarkən Azərbaycanın bu böyük mədəni irsə verdiyi töhfələri xüsusi qeyd etmək lazımdır. Əlverişli coğrafi mövqeyi, Şərq və Qərb mədəniyyətlərinin qovuşuğunda yerləşməsi, zəngin sənətkarlıq ənənələri Azərbaycanı İslam dünyasının mühüm mədəniyyət mərkəzlərindən birinə çevirib.

Azərbaycan memarlıq məktəbinin ən parlaq nümunələri sırasında Naxçıvan memarlıq məktəbinin banisi sayılan Əcəmi Naxçıvaninin yaradıcılığı xüsusi yer tutur. XII əsrdə inşa edilmiş Möminə Xatun türbəsi yalnız memarlıq abidəsi deyil, həm də daş üzərində həkk olunmuş həndəsi ornamentlərin, kufi yazıların və mürəkkəb dekorativ kompozisiyaların nadir vəhdətidir. Abidənin hər detalında sənətkarın riyazi dəqiqliyi ilə bədii təxəyyülünün birləşdiyini görmək mümkündür.

Yeganə BAYRAMOVA

Sualların bitmədiyi, düşüncənin başladığı yer...

Fəlsəfə bəşəriyyətin düşüncə yaddaşıdır

Bəşəriyyətin inkişaf tarixini yalnız kəşflər, siyasi dəyişikliklər və elmi nailiyyətlərlə ölçmək olmaz. Bu tarixin görünməyən, lakin heç də az əhəmiyyət daşımayan başqa bir tərəfi də var: insan düşüncəsinin keçdiyi yol. Ədalət, azadlıq, həqiqət, mənəviyyat, həyatın mənası və insanın cəmiyyətdəki yeri haqqında əsrlər boyu aparılan müzakirələr sivilizasiyanın intellektual əsaslarını formalaşdırıb. Bu axtarışların mərkəzində isə fəlsəfə dayanır. O, ayrı-ayrı dövrlərin düşüncə tərzini əks etdirməklə yanaşı, cəmiyyətlərin inkişaf istiqamətinə, insanların dünyagörüşünə və bəşəri dəyərlərin formalaşmasına da təsir göstərib.

Hər il noyabr ayının üçüncü cümə axşamı Ümumdünya Fəlsəfə Günü kimi qeyd edilir. Bu xüsusi gün insanı düşünməyə, mövcud bilikləri sorğulamağa, həyatın mənası və cəmiyyətin gələcəyi haqqında daha dərindən düşünməyə dəvət edir. UNESCO-nun təşəbbüsü ilə 2002-ci ildən qeyd edilən bu gün fəlsəfənin yalnız akademik mühitə, universitet auditoriyalarına və elmi müzakirələrə aid olmadığını xatırladır. Əslində, fəlsəfə gündəlik həyatımızın içindədir: verdiyimiz qərarlarda, seçdiyimiz dəyərlərdə, başqalarına münasibətimizdə və dünyanı necə anlamağımızda...

Cavabdan çox, sual vermək cəsarəti

Çox vaxt fəlsəfə mürəkkəb terminlər, çətin nəzəriyyələr və anlaşılması çətin mətnlərlə əlaqələndirilir. Halbuki onun başlanğıc nöqtəsi olduqca sadədir: sual vermək. İnsan niyə yaşayır? Ədalət nədir? Xoşbəxtlik maddi imkanlarla ölçülürmü? Azad olmaq nə deməkdir? Həqiqət hamı üçün eynidirmi?

Bu sualların hər biri insanı öz düşüncələri ilə üz-üzə qoyur. Fəlsəfənin əsas xüsusiyyəti də məhz budur: o, insana yalnız nə düşünməli olduğunu demir, necə düşünməli olduğunu öyrədir. Bəzən bir sualın doğurduğu müzakirə hazır cavabdan daha qiymətli olur. Çünki sual insanı araşdırmağa, müqayisə etməyə, fərqli mövqeləri anlamağa və öz qənaətini formalaşdırmağa sövq edir.

Qədim yunan filosofu Sokratın “Düşünülməmiş həyat yaşamağa dəyməz” fikri əsrlər keçsə də, aktuallığını qoruyur. Bu yanaşma insanı gündəlik qayğıların axarında öz həyatına kənardan baxmağa, seçimlərinin səbəblərini anlamağa çağırır.

Qədim müdriklikdən müasir dünyaya uzanan yol

Fəlsəfə bəşər sivilizasiyasının müxtəlif mərhələlərində fərqli mədəniyyətlərin düşüncə ənənələri ilə zənginləşib. Antik Yunanıstanda Sokrat, Platon və Aristotel insan, dövlət, bilik və əxlaq haqqında fundamental fikirlər irəli sürüblər. Şərq fəlsəfəsində isə Konfutsi, Lao Tszı, Farabi, İbn Sina və digər mütəfəkkirlər insanın mənəvi dünyası, cəmiyyətin quruluşu, ağıl və idrak məsələlərinə xüsusi diqqət yetiriblər.

Azərbaycanın da zəngin fəlsəfi irsi var. Nizami Gəncəvinin əsərlərində ədalətli cəmiyyət, insan ləyaqəti, mənəvi kamillik və müdriklik ideyaları mühüm yer tutur. Nəsiminin yaradıcılığı insanın mənəvi qüdrətini, azad düşüncəsini və özünü dərketmə axtarışını ifadə edir. Füzulinin əsərlərində isə eşq, insan təbiəti, həyatın faniliyi və mənəvi dəyərlər fəlsəfi dərinliklə təqdim olunur. Bu irs göstərir ki, fəlsəfə yalnız müəyyən bir coğrafiyanın və ya dövrün düşüncə məhsulu deyil. O, müxtəlif xalqların təcrübəsini birləşdirən, nəsillər arasında mənəvi və intellektual körpü yaradan ümumbəşəri dəyərdir.

İnformasiya bolluğu dövründə düşünmək niyə vacibdir?

Müasir insan tarixdə heç vaxt olmadığı qədər böyük informasiya axını ilə qarşı-qarşıyadır. Bir neçə saniyə ərzində dünyanın istənilən nöqtəsində baş verən hadisə haqqında məlumat əldə etmək mümkündür. Lakin məlumatın çoxluğu heç də həmişə bilikli olmaq demək deyil. Əsas məsələ əldə edilən informasiyanı təhlil etmək, onun doğruluğunu yoxlamaq və mahiyyətini anlamaqdır.

Məhz burada fəlsəfi düşüncənin əhəmiyyəti üzə çıxır. Tənqidi düşüncə insana eşitdiyi hər fikri həqiqət kimi qəbul etməmək, faktla rəyi fərqləndirmək, manipulyasiyaları tanımaq imkanı verir. Sosial şəbəkələrdə yayılan məlumatların sürətlə mənimsənildiyi bir dövrdə bu bacarıq xüsusilə vacibdir.

Süni intellekt insanı düşünməkdən uzaqlaşdıracaqmı?

Bu gün fəlsəfənin qarşısında dayanan ən maraqlı məsələlərdən biri texnologiyanın sürətli inkişafıdır. Süni intellekt artıq mətn yazır, suallara cavab verir, məlumatları təhlil edir, mürəkkəb problemlərin həllində iştirak edir. Belə bir şəraitdə mühüm sual yaranır: maşınlar getdikcə daha çox intellektual işi yerinə yetirirsə, insan düşüncəsinin özünəməxsusluğu nədə qalır?

Bu sual yalnız texnoloji deyil, həm də fəlsəfi mahiyyət daşıyır. Şüur nədir? İnsan zəkasını sadəcə məlumatı emal etmək qabiliyyəti ilə ölçmək mümkündürmü? Əxlaqi məsuliyyət daşımaq, empatiya göstərmək, seçimlərin nəticələrini mənəvi baxımdan qiymətləndirmək nə deməkdir?

Texnologiya inkişaf etdikcə insanın öz mahiyyətini dərk etmək ehtiyacı da artır. Süni intellektin imkanlarından düzgün istifadə, şəxsi məlumatların qorunması, alqoritmlərin ədalətliliyi və texnoloji qərarların etik tərəfləri fəlsəfi müzakirələrin yeni istiqamətlərinə çevrilib. Deməli, gələcəyin dünyasında fəlsəfəyə ehtiyac azalmaq əvəzinə, daha da artır.

Yeganə BAYRAMOVA

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4308
Sifariş: 1526
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova